# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Azərbaycan Fransanın qərəzli siyasəti qarşısında qətiyyətlə dayanacaq



4

SƏS
№ 132 (7300)
29 iyul 2025-ci il.
Qiyməti 60 qəpik

# Ədalətli və tam qələbə!



2

*Prezident İlham Əliyev: "Əgər son qərar səndən asılıdırsa, həyatını bu işə həsr etməlisən"*

# Qərbin yeni hədəfi

*Xəzər dənizi və Zəngəzur dəhlizi Rusiya ilə Qərbin qarşıdurmasında*



8

## YAP Mərkəzi Aparatında görüş keçirilib



4

**DİQQƏT: İnsanlar bu saatlarda açıq havada qalmaqdan çəkinməlidirlər!**



11

**Kərə yağı adı ilə satılan saxta yağları necə tanıyaq?**



16

## Hepatit: hər 30 saniyədə bir nəfər...



12

## Moskvada azərbaycanlı bloggerə qarşı 20 milyonluq İTTİHAM...



16

***Regionun deyil, bütövlükdə Türk-İslam dünyasının mərkəzinə çevrilən tarixi şəhərimiz Şuşa beynəlxalq səviyyəli tədbirlərin, siyasi diskussiyaların, mədəniyyət və sülh məkanına çevrilib. "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda III Şuşa Qlobal Media Forumunun iştirakçıları Azərbaycanın mədəniyyət paytaxtı Şuşada bir araya gəldilər.***

Ümumilikdə 52 ölkədən 140 qonağın, 30-a yaxın informasiya agentliyinin və 80 media qurumunun nümayəndələrinin iştirak etdiyi builki Forum rəqəmsal keçidlər, süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi mövzusuna həsr olunmuşdu. Aparılan müzakirələr məhz medianın çağırışlar və imkanlar qarşısında müqavimətinin gücləndirilməsinə, o cümlədən rəqəmsal transformasiyanın təsirinə və müstəqil jurnalistikanın, sülhün, inkişafın, qarşılıqlı anlaşmanın daha da artırılmasına yönəldildi.



# Ədalətli və tam qələbə!

## Prezident İlham Əliyev: "Əgər son qərar səndən asılıdırsa, həyatını bu işə həsr etməlisən"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xankəndidə "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündə yerli və xarici media nümayəndələrinin Ona ünvanladığı müxtəlif istiqamətləri əhatə edən sualları cavablandıraraq ölkəmizin strateji istiqamətlərini, tutduğu yolu, məqsədlərini bir daha dünyanın diqqətinə çatdırmış oldu.

Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsinə həsr edilmiş tədbirdə bir çox vacib məsələlərə toxunuldu. Dünyanın sürətlə inkişaf edən ölkələri sırasında yeri olan, media azadlığının təmin olunduğu, internet medianın inkişaf etdiyi bir dövlətin Prezidentinin səslədirdiyi fikirlər bu günün reallıqlarını tam əks etdirir. "Bugünkü görüşü burada, yeni tikilmiş Konqres Mərkəzində, Xankəndinin Zəfər meydanında keçirmək qərarına gəldik. Beləliklə, əminəm ki, bura qonaqlar üçün maraqlı olacaq, yenidənqurma, eləcə də 30 ildən artıq bu yerlərdən didərgin düşmüş insanların qayıtması baxımından ərazilər azad olunandan sonra görülmüş işlərə baxmaq cəlbedici olacaq"- deyə Azərbaycan Prezidenti bildirib.

### "BİZ DƏ QƏRAR VERDİK Kİ, YENİ REALLIQLAR YARADACAĞIQ"

Azərbaycan Prezidenti ümumiyyətlə, ölkədə və regionda baş verən hadisələrə toxunaraq, Azərbaycana qarşı ədalətsiz müharibə aparıldığını və onun ərazi bütövlüyünün pozulduğunu, torpaqlarının ermənilər tərəfindən işğal olunduğunu diqqətə çəkib. _"Mən 2003-cü ilin sonlarından etibarən danışıqlar prosesində iştirak edirdim. 17 il ərzində çoxlu təkliflər, çoxlu görüşlər oldu, – bəlkə də heç də faydalı olmayan, – və çoxlu mesajlar alırdıq ki, reallıqla barışmaq lazımdır. "Reallıq budur, siz bununla barışmalısınız". Mən deyirdim ki, xeyr. Bu, dünya güclərinə bir çağırış kimi qəbul olunurdu, qeyri-adekvat reaksiya kimi dəyərləndirilirdi. Əsas narrativ isə bu idi – görürsünüz, onlar razılaşmır, onlara separatçılara şərti müstəqillik verilməsi müqabilində nəsə təklif olunur, amma onlar razılaşmırlar", - deyə Prezident diqqətə çatdırıb. BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərini tərk etməsi haqqında 4 qətnamə (822, 853, 874, 884 saylı) qəbul etmişdi. Lakin erməni işğalçıları bu qətnamələri yerinə yetirmədilər. "Bizim beynəlxalq hüquqa əsaslanan arqumentlərimiz – BMT Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin ərazilərimizdən çıxarılmasını tələb edən 4 qətnaməsi, Minsk qrupunun həmsədrlərinin bu qətnamələrə səs verməlari – bunların hamısı reallıqla barışmaq tələbini ehtiva edən təkəbbürlü bəyanatlar fonunda cavabsız qalırdı", - deyən dövlət başçısı qeyd edib ki, biz də qərar verdik ki, yeni reallıqlar yaradacağıq və siz onlarla barışmalı olacaqsınız. Azərbaycan yeni reallıqları 2020-ci ildə 44 günlük Vətən müharibəsində yaratmış oldu. 2023-cü il sentyabrın 19–20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində isə ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Əməliyyat 24 saata qədər çəkmişdir. Müzəffər Ordumuz Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ermənilərə qarşı qisas əməliyyatları keçirmiş və düşmən layiqli cəzasını aldı. 24 saatdan az davam edən bu əməliyyat ordumuzun şanlı Qələbəsi ilə başa çatdı. Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tör-töküntülərinə qarşı antiterror tədbirləri nəticəsində düşmənin atəş nöqtələri məhv edildi, mühüm yüksəklikləri işğaldan azad olundu, çoxlu sayda canlı qüvvəsi, silah və texnikası zərərsizləşdirildi. Ağır itkilər verən işğalçılar ağ bayraq qaldıraraq təslim oldular. "Ədalətə inamım demək olar ki, itmişdi, keçmiş köçkün vətəndaşlarımız kimi. Onlarla daim görüşür və deyirdim ki, "inanın, biz qayıdacağıq". Amma hər il onların gözlərində inamın azaldığını görürdüm. Axı, gözlər hər şeyi deyir. Onlar mənə deyə bilərlər ki, bəli, inanırıq, amma gözlər hər şeyi deyir. Mənim də inamım az idi, ədalətə inamım. Amma bizim Qələbəmiz, – bu, ədalətli və tam qələbədir, – göstərdi ki, ədalət var, sadəcə, ona nail olmaq lazımdır", - deyə Azərbaycan Prezidenti Ona ünvanlanan sualı cavablandırarkən bildirib. Dövlətimizin başçısı onu da diqqətə çəkib ki, Bu ədaləti əldə etmək üçün hər gün işləmək, hər gün qələbəyə yaxınlaşmaq lazımdır: "Əgər son qərar səndən asılıdırsa, həyatını bu işə həsr etməlisən. Yalnız bu halda bu, baş verə bilər.

Əlbəttə, ən vacib amil cəmiyyətin həmrəyliyidir. Həmrəyliyin Prezident, Ali Baş Komandan olaraq mənə verdiyi mənəvi güc çox böyük idi. Əmin idim ki, xalq mənim arxamda dayanacaq. Bu da yəqin ki, həlledici amillərdən biri oldu".

### AYDAN-AYA, İLDƏN-İLƏ QAYIDAN VƏTƏNDAŞLARIN SAYI ÇOXALACAQ, QARABAĞ, ŞƏRQİ ZƏNGƏZUR DİRÇƏLƏCƏK

Antiterror tədbirləri Azərbaycanın hərbi gücünün hərbi qüdrət səviyyəsinə qalxdığını, ölkəmizdə hərbi quruculuq işinin mükəmməl şəkildə davam etdirildiyini və xalqımızın qələbə əzminin sarsılmaz olduğunu bir daha nümayiş etdirdi. Bu tədbirlər nəticəsində Qarabağdakı xunta rejimi darmadağın edildi. 2023-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin olunduğunu və Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpa edildiyini nəzərə alaraq Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında" Sərəncam imzaladı. Sərəncama əsasən, hər il sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd edilir. Bu gün suveren və bütöv Azərbaycan yeni reallıqlar yaradıb. Postmüharibə dövründə Qarabağ və Şərqi Zəngəzurda yenidənqurma işləri, keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qaytarılması və iqtisadi inteqrasiya layihələri suveren dövlətin reallıqlarını bir daha təcəssüm etdirir. Qalib Sərkərdə, Prezident İlham Əliyevin Sərəncamı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi milli suverenliyimizin və hüquqi dəyərlərimizin təbliği baxımından tarixi bir Sənəddir.

Bu günün reallıqları çərçivəsində Azərbaycanın mövqeyi, haqq səsi, qlobal hadisələrə münasibəti dünyanın müxtəlif ölkələrindən gələn insanların diqqətinə çatdırılır. Dünyada baş verən qlobal siyasi cərəyanlar təbii ki, Cənubi Qafqaza da təsirini göstərir. Azərbaycanın tarixi Zəfəri, ərazi bütövlüyünün və suverenliyinin tam bərpası artıq regionda yeni reallıqlar yaratmışdır. Əlbəttə ki, Prezident İlham Əliyevin Forumda bir çox məsələlər, o cümlədən regionda baş verən proseslərlə bağlı səsləndirdiyi fikirlər dünyaya bir mesaj oldu. Münaqişələr və qarşıdurmalar tarixə qovuşub. 44 günlük Vətən müharibəsindən sonra Böyük Qayıdış strategiyası çərçivəsində aparılan genişmiqyaslı abadlıq quruculuq işləri ölkəmizin iqtisadi gücünün göstəricilərindəndir. "Böyük Qayıdış" Proqramı artıq reallaşıb. Təbii ki, bunun mərhələləri olacaq və aydan-aya, ildən-ilə qayıdan vətəndaşların sayı çoxalacaq, Qarabağ, Şərqi Zəngəzur dirçələcək. Mən "Böyük Qayıdışın əvvəlində demişdim ki, biz bu bölgəni cənnətə çevirəcəyik, artıq cənnətin kiçik bir parçasıdır", - deyə Azərbaycan Prezidenti vurğulayıb. Keçmiş köçkünlərin yaşadıqları yaşayış məntəqələrinin sayı 18-ə çatıb və 50 mindən artıq insan həmin ərazilərdə yaşayır.

### "BU TORPAQLAR ÜÇÜN O QƏDƏR DARIXMIŞIQ, O QƏDƏR BU TORPAQLARIN HƏSRƏTİNDƏ OLMUŞUQ Kİ, İNDİ QAYITMIŞIQ"

Təbii ki, qısa bir zaman məsafəsində bütün ərazilərin tam abadlaşması bir qədər çətindir. İşğaldan azad olunan ərazilərin minalardan təmizlənməsi də əsas məsələlər sırasındadır. Bu gün əlbəttə ki, azad edilən ərazilərdə minaların və partlamamış döyüş sursatlarının aşkarlanması və zərərsizləşdirilməsi üzrə tədbirlər davam etdirilir. Mina partlayışları nəticəsində həyatını itirən insanların sayının artması nəticəsində Ermənistanı minalanmış ərazilərin xəritələrini verməyə məcbur etmək məqsədi ilə Azərbaycan tərəfindən dünya ictimaiyyətinə, beynəlxalq qurumlara və təşkilatlara müraciət ünvanlanıb. Ermənistan minalanmış sahələrin tam xəritələrini verməsə də, bu gün artıq Azərbaycan işğaldan azad olunan ərazilərdə abadlıq-quruculuq işlərini davam etdirir. İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunub. Bu Milli Prioritetlərə əsaslanan "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edən mühüm sənəddir.

"Qısa müddət ərzində bu qədər böyük işin görülməsi bu gün bir daha göstərir ki, bizim nə qədər istedadlı xalqımız var. Mənə çatan məlumata görə, o cümlədən buraya səfər edən xarici nümayəndələr deyirlər ki, söhbət təkcə pulda, pul məsələsində deyil. İstəyir nə qədər pulun olsun, əgər insan kapitalı yoxdursa, əgər insanlar ürəklə işləmirlərsə, heç bir işi görmək mümkün deyil. Bir xüsusi əlaməti də diqqətinizə çatdırım, yəqin ki, siz də bunu yaxşı bilirsiniz. Burada işləyənlərin hamısı çox böyük həvəslə işləyir, - yeni, təbii ki, burada şirkətlər, dövlət qurumları işləyir, - burada işləmək insanlara xüsusi zövq verir. Biz bu torpaqlar üçün o qədər darıxmışıq, o qədər bu torpaqların həsrətində olmuşuq ki, indi qayıtmışıq və necə deyərlər, bu torpaqlarımızdan doya bilmirik", - deyə Azərbaycan Prezidenti bildirib.

***Zümrüd BAYRAMOVA***

# Rusiyadan yan keçən marşrut

## Tokayev Türkiyədə Qazaxıstan neftinin ixracını müzakirə edəcək



Qazaxıstan prezidenti Kasım-Jomart Tokayev iyulun 29-da Ankaraya rəsmi səfər edəcək.Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanla danışıqlarda hər iki ölkə üçün strateji əhəmiyyət kəsb edən məsələlərin, o cümlədən Qazaxıstan neftinin şaxələndirilməsi və onun Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri ilə nəqlinin artırılmasının müzakirəsi planlaşdırılır. Daha əlverişli investisiya və turizm mühitinin yaradılması səyləri çərçivəsində Qazaxıstan Türkiyə ilə vizasız rejimi genişləndirir. Türkiyə və Qazaxıstan başçıları həmçinin Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasını keçirəcəklər və burada iqtisadi inteqrasiya, rəqəmsal transformasiya, müdafiə təşəbbüsləri və türk birliyinin möhkəmləndirilməsinin əsas aspektlərini nəzərdən keçirəcəklər.

Qazaxıstan və Türkiyə arasında iqtisadi əməkdaşlığın tempi hələlik istənilən kimi sürətlə artmır. Hərbi sahəni (keçən il Qazaxıstanda pilotsuz təyyarələrin istehsalına dair saziş imzalanıb), enerji, birgə nəqliyyat layihələrində iştirak, o cümlədən mədəniyyət və təhsil sahəsini və Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində qarşılıqlı əlaqələri əhatə edən geniş ikitərəfli gündəliyə baxmayaraq, əməkdaşlıq potensialı ilə uzlaşmır. Belə geniş gündəmə malik Qazaxıstan və Türkiyənin bir sıra məhdudlaşdırıcı amilləri var. Birincisi, bu, ölkələrin coğrafi məsafəsi ilə bağlıdır. İkincisi, rəsmi ideoloji yaxınlığa baxmayaraq, Qazaxıstan və Türkiyə mövqelərində və bir çox digər parametrlərdə fərqlər var. İqtisadi baxımdan Türkiyə Qazaxıstanın 10 ən böyük ticarət tərəfdaşı sırasında olsa da, türk sərmayələri əsasən tikinti və xidmət sektorunda cəmləşib.

Eyni zamanda, mədəni yaxınlıq ikitərəfli münasibətlərin möhkəmlənməsi amili olmaqla yanaşı, həm də türkdilli dövlətlər arasında çoxtərəfli əlaqələrin inkişafı üçün əsas rolunu oynayır. Onların arasında Türkiyə və Qazaxıstan birlik ideyasının ən fəal tərəfdarlarıdır. Belə ki, 2012-ci ildən Qazaxıstanda Beynəlxalq Türk Akademiyası, o cümlədən türk universitetləri, kollec və liseyləri fəaliyyət göstərir. Türkiyə tərəfi bu təhsil ocaqlarını 2016-cı ildə yaradılmış Maarif təhsil fondunun nəzarətinə keçirməyə çalışır. Türkiyə ilə təhsil əməkdaşlığı sahəsində Rusiya, Çin və Qərb ölkələri də Qazaxıstanda rəqabət aparırlar. "Bolaşak" sistemi (Qazaxıstan Prezidentinin beynəlxalq təhsil təqaüdü) çərçivəsində qazaxıstanlı tələbələr hazırda Türkiyədə təhsil almırlar. Lakin milli ədəbi əsərlər vasitəsilə nəsildən-nəslə ötürülən vahid tarixi şüurun, ümumi coğrafi ideyaların və mədəni dəyərlərin gənclər arasında formalaşdırılması istiqamətində fəal iş aparıldığı üçün bu vəziyyət tezliklə dəyişə bilər. Bu istiqamətdə atılan mühüm addım 2020-ci ildə Türkiyə, Qazaxıstan və Azərbaycan üçün "Türklərin ümumi tarixi" adlı vahid məktəb dərsliyinin tətbiqinə başlanılıb. Lakin Qazaxıstanla Türkiyə arasında münasibətlər obyektiv çətinliklərdən də xali deyil. Əlbəttə, türkdilli ölkələrin yaxınlaşmasından qorxan bəzi qüvvələr artıq əl-ayağa düşüblər.

Apreldə Səmərqənddə keçirilən "Mərkəzi Asiya – Avropa İttifaqı" sammiti də buna bariz nümunədir. Enerji ixracı marşrutlarının şaxələndirilməsinə gəlincə, Orta Asiya ölkələrinin Qərbə istiqamətlənən kəmərlərinin yalnız Rusiyadan keçdiyi halda səmərə verəcəyini düşünən rusiyalı ekspertlər Xəzər Nəqliyyat Marşrutunun (XNM) əvəzedicisinin olmadığını daimi olaraq vurğulayırlar. Qazaxıstan 2025-2040-cı illər üçün Neft Emalı Sənayesinin İnkişafı Konsepsiyası təsdiq edib – bu, təkcə daxili ehtiyacları ödəməli, həm də ölkəni neft məhsullarının ixracında regional liderlərdən birinə çevirməli olan sektorun transformasiyası üçün iddialı plandır. Buna görə də Qazaxıstan Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri ilə Türkiyəyə neft nəqlini artırmaq niyyətindədir və İran limanları vasitəsilə Hindistana ixrac imkanlarını araşdırır.



Qazaxıstan ehtiyat edir ki, Qərb enerji sektorunda Rusiyaya qarşı sanksiyalar tətbiq edə bilər ki, bu da Qazaxıstanın neft sənayesinə zərbə vuracaq. Xüsusən də bu yaxınlarda Qazaxıstan neftinin XNM vasitəsilə ixracı dayandırılıb. Amma bu dəfə səbəb xarici gəmilərin Rusiya limanlarına daxil olması üçün FSB-dən icazə almalı olduğu yeni Rusiya qaydaları idi. Bu, yaxın gələcəkdə həll olunacaq texniki məsələ deyil və XNM vasitəsilə neft ixracının illik nəticələrinə qlobal təsir göstərəcək. BTC boru kəmərinə gəlincə, burada heç bir məhdudiyyət yoxdur. Amma, Qazaxıstan neftinin bu xətt boyunca getməsi üçün əlavə boruya ehtiyac yaranır. Bu isə xeyli bahadır, infrastruktur hazır deyil. Bundan əlavə, Qazaxıstan neftinin keyfiyyəti aşağıdır, endirimlə satılır, Azərbaycan Azeri Lights isə yüksək qiymətə satılır. Buraxılan qazax neftinin həcminin artırılması Azərbaycan neftinin keyfiyyətini pisləşdirəcək və onun qiymətini aşağı salacaq, ona görə də Qazaxıstan Azərbaycanın itkisini azaltmaq istəyir. Yəni Qazaxıstan neftinin BTC vasitəsilə tədarükü.




### Qardaşlıq xətti

İyulun 16-da Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun Azərbaycana səfəri də diqqətçəkən məqamları ilə yadda qaldı. Azərbaycan Prezidenti İlham Əliyevlə Qurbanqulu Berdiməhəmmədov arasında keçirilən görüşdə iki ölkənin bir çox sahələrdə uğurla əməkdaşlıq etdiyi vurğulandı. Görüşdə siyasi, iqtisadi, humanitar və digər sahələrdə, o cümlədən nəqliyyat, energetika sahələrində əldə edilən bir çox nailiyyətlər barədə danışıldı, gələcək əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.

Qurbanqulu Berdiməhəmmədov çıxış edərək Azərbaycan Respublikasına səfərində əsas məqsədin ikitərəfli münasibətləri daha da dərinləşdirmək və inkişaf etdirmək, əldə olunan nailiyyətləri möhkəmləndirmək, yeni layihələrin və istiqamətlərin həyata keçirilməsinə əlavə stimul vermək olduğunu qeyd edib. Türkmənistanla Azərbaycan xarici siyasət sahəsində BMT Nizamnaməsinə və tanınmış beynəlxalq hüquq normalarına riayət etməklə prinsipial və qəti mövqedən çıxış edir, dünyada və qitədə, regional məsələlərdə, Xəzər dənizi zonasında sabitliyin və təhlükəsizliyin təmin edilməsinə mühüm töhfə verir.

### Transxəzərdə birləşən maraqlar

Avropa İttifaqının 2027-ci ilin sonuna qədər Rusiya qazının idxalını tamamilə dayandırmaq niyyətində olması ilə əlaqədar olaraq, Brüssel Rusiya qazı üçün əvəzləyici tapmağa imkan verəcək bir neçə potensial mənbənin adını çəkir, o cümlədən Azərbaycan və dünyanın ən böyük təbii qaz ehtiyatlarına malik Türkmənistan. Azərbaycan öz qazını Avropaya çatdırmaqda Türkmənistan üçün "qapı" olmağa hazırdır. Xüsusi tapşırıqlar üzrə səfir Elçin Əmirbəyov və Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev Avropa mediasına müsahibələrində bildirdikləri kimi, Türkmənistan Brüsselə addımlarını sinxronlaşdırmağa hazırdır. Türkmənistan yataqlarını Rusiyadan yan keçməklə Azərbaycan, Türkiyə və Avropa İttifaqı ilə birləşdirəcək Transxəzər qaz kəməri layihəsi də diqqət mərkəzində olub.

### Xəzərdə açar ölkə

Xəzər regionu Xəzəryanı dövlətlərdə öz təsirini gücləndirmək planlarından əl çəkməyən ABŞ-ın diqqət mərkəzində qalır. Amerikanın maraqlarını inkişaf etdirmək üçün əsas vasitələrdən biri yeni boru kəməri layihələridir. Onların tikintisi Vaşinqton tərəfindən uzunmüddətli maraqlar və Rusiyanın regionda siyasi və enerji təsirinin zəifləməsi ehtimalı kontekstində nəzərdən keçirilir. 2025-ci il may ayının sonunda ABŞ dövlət katibi Marko Rubio Türkmənistan qazını Avropa bazarına çatdırmaq üçün Türkmənistanı Azərbaycanla birləşdirməli olan transxəzər qaz kəmərinin tikintisi layihəsinə ABŞ administrasiyasının dəstəyini bir daha bəyan edib.

SSRİ-nin dağılmasından sonra karbohidrogenlərin hasilatı və Xəzər regionundan nəqli məsələləri ABŞ-ın bütün administrasiyalarının diqqət mərkəzində idi. ABŞ Xəzər regionunda boru kəməri memarlığının inkişafına diqqəti artırıb. Vaşinqton Xəzəryanı dövlətlərin Qərb ölkələrinin maraqları sferasında iştirakını artırmalı olan yeni boru kəməri layihələrini irəli sürüb. Əsas səylər region ölkələrinin yaxın onilliklərdə hasil etməli olduqları Xəzərin karbohidrogen ehtiyatlarının gələcək axınının Rusiya ərazisindən keçməməsinə yönəlib. Bu səbəbdən potensial neft və qaz ehtiyatlarına malik, lakin əsas satış bazarlarından uzaqda yerləşən Qazaxıstan, Azərbaycan və Türkmənistan ABŞ-ın diqqət mərkəzində olub. Amerika tərəfi bir sıra boru kəməri layihələrinin həyata keçirilməsinə nail olub. Bu, Azərbaycanın karbohidrogenlərinə aiddir və onların xarici bazara çıxışı təmin edilirdi. Ötən əsrin 90-cı illərində Azərbaycan neftinin və qazının gələcək həcmlərinin ixrac istiqamətlərinin seçilməsi məsələsində baş verən rəqabətdə Rusiya öz mövqelərini müdafiə edə bilmədi. Nəticədə, Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri Xəzər karbohidrogenlərinin Türkiyə bazarına, daha sonra isə "Cənub Qaz Dəhlizi"nin həyata keçirilməsi ilə Avropa qaz bazarına çıxışı təmin etdi. Bununla belə, ABŞ üçün Xəzər regionunda geosiyasi məkanı köklü şəkildə yenidən formatlaşdırmaq vacib idi. Bu məqsədlə Amerika tərəfi karbohidrogen ehtiyatlarının axın marşrutlarına və bununla yanaşı, regionda qüvvələr balansına əhəmiyyətli təsir göstərəcək boru kəmərləri çəkməyi planlaşdırırdı. Bu kontekstdə Qazaxıstan nefti və Türkmənistan qazının Azərbaycan üzərindən dünya bazarına çıxması üçün perspektivli marşrut kimi qiymətləndirilən transxəzər boru kəmərləri layihələri Vaşinqtonda xüsusi maraq doğurub.

***V.VƏLİYEV***

**_Fransanın Milli Assambleyasında irəli sürülən, Azərbaycan əleyhinə yönəldilmiş əsassız ittihamlarla dolu qətnamə layihəsi Fransanın Cənubi Qafqaz regionundakı qərəzli və düşmənçilik siyasətinin daha bir bariz göstəricisidir. Bu sənəd Fransanın sadəcə ikitərəfli münasibətləri böhran səviyyəsinə çatdırmaqla kifayətlənmədiyini, həm də sülh və normallaşma ərəfəsində olan iki ölkənin işinə qarışmaqla, regional sülh və sabitliyə ciddi zərbə vurduğunu nümayiş etdirir._**

# Azərbaycan Fransanın qərəzli siyasəti qarşısında qətiyyətlə dayanacaq



Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Pərvanə Vəliyeva söyləyib. O qeyd edib ki, qətnamədə yer alan ittihamlar tamamilə əsassızdır və beynəlxalq hüquq normalarına ziddir. "Azərbaycan Vətən müharibəsi zamanı əsir götürdüyü erməniəsilli hərbçilərə münasibətdə humanizm nümayiş etdirərək onların hamısını azad edib. İstinad edilən şəxslər isə müharibədən 3 il sonra, fərqli qanun pozuntuları, habelə terrorçuluğu maliyyələşdirmə, dövlət sərhədini qanunsuz keçmə, həmçinin müharibə və insanlıq əleyhinə cinayətlərdə ittiham olunaraq həbs ediliblər. 30 il öncə Qarabağ və Şərqi Zəngəzurda yaşayan azərbaycanlılara amansız işgəncələr verərək, insanlıq adına bütün vəhşilikləri törədərək yüz minlərlə azərbaycanlını öz evindən, vətənindən didərgin salan, həmçinin etdikləri qanunazidd əməlləri, o cümlədən Azərbaycanın şəhərlərini raketlərlə atəşə tutaraq mülki əhalini qəsdən qətlə yetirməsini öz ifadəsi ilə etiraf edən cinayətkarlar hərbi əsir hesab edilə bilməz. Azərbaycanın öz ərazisindəki qanuni məhkəmə proseslərini "qondarma" adlandırmaq, müstəqil bir dövlətin suverenliyinə açıq şəkildə müdaxilədir", - deyə deputat bildirib.

Qətnamədə Azərbaycanın əleyhinə yönəlik 7 bənddən ibarət tələblər irəli sürüldüyünə diqqət çəkən P.Vəliyeva vurğulayıb: "Burada Azərbaycanla davam edən danışıqlar çərçivəsində Ermənistan Respublikasının sülh səylərinə tam dəstək verilməsi və Avropa İttifaqının vasitəçilik rolunu qoruma ğa və gücləndirmək tələbi, Azərbaycanın Ermənistanın mövcudluğunu inkar etdiyi, bunun Azərbaycanın "Arstaxda" və digər nəzarət etdiyi bütün ərazilərdə erməni əhalisini məhv etmək siyasətinin davamı olduğu, eləcə də Azərbaycanın dini, mədəni və tarixi irsi məhv etdiyi kimi absurd iddiaları irəli sürülür. Bu iddialar Fransanın öz müstəmləkə keçmişi və hazırkı siyasəti ilə tamamilə ziddiyyət təşkil edir. Mədəni irsin qorunmasından dəm vuran Fransa öz ərazisində ucaldılan və qadınların azadlığı rəmzini özündə əks etdirən Natəvanın heykəlini Evian şəhərində təhqir olunmasının qarşısını almayıb. Fransa mətbuatında ölkəmizə qarşı aparılan qarayaxma kampaniyası çərçivəsində istifadə edilən tezislərin Milli Assambleyada irəli sürülmüş qətnamədə öz əksini tapması bu "orkestrin" arxasında Emmanuel Makron Administrasiyasının durmasının daha bir göstəricisidir. Fransada media azadlığı sadəcə sözdən ibarətdir.

Prezident E.Makron Azərbaycanın Vətən müharibəsindəki Qələbəsini qəbul edə bilmir və Fransanın Azərbaycana qarşı düşmənçilik siyasətində onun şəxsiyyətinin xüsusiyyətləri xüsusi rol oynayır. E.Makrona görə, Ermənistanın işğalı davam etməli idi, çünki bu, onun sələfləri tərəfindən uğurla dəstəklənirdi".

Deputat əlavə edib ki, Fransa regionumuzda militarizasiya siyasəti həyata keçirir, Ermənistanı müasir hücum təyinatlı silahlarla təmin edir. "Fransanın Ermənistanı hərbiləşdirməklə oradakı revanşist qüvvələri təşviq etməsi, Azərbaycana qarşı yeni müharibəyə həvəsləndirməsi əsas məqsəddir. Fransa hesab edir ki, regionda qalmasının tək yolu Ermənistanın daxilinə daha dərindən inteqrasiya etməsidir. Nəticə etibarilə, Fransa Milli Assambleyasının növbəti qətnamə layihəsi beynəlxalq hüquqa, ədalətə və regional sabitliyə hörmətsizliyin nümunəsidir. Bu qətnamə layihəsi yalnız Fransanın öz geosiyasi maraqlarını Ermənistan üzərindən həyata keçirmək cəhdidir. Azərbaycan isə öz müstəqil siyasətini davam etdirəcək, ölkənin milli təhlükəsizliyinin qarantiyası kimi yalnız Azərbaycan dövlətini görəcək və heç bir xarici təzyiqə boyun əyməyəcək. Prezident İlham Əliyev isə bütün cəbhələrdə fransalı həmkarını açıq-aşkar üstələməyə nail olub. Bu, həm Vətən müharibəsindəki Zəfərdə, həm də dekolonizasiya məsələsində özünü göstərib. Azərbaycan daha da güclənir və Fransanın əsassız ittihamları və qərəzli siyasəti qarşısında qətiyyətlə dayanacaq", - deyə P.Vəliyeva əlavə edib.

# YAP Mərkəzi Aparatında görüş keçirilib







İyulun 28-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında ölkəmizdə səfərdə olan Gürcüstan parlamentinin nümayəndələri ilə görüş keçirilib. Görüş zamanı səmimi dostluq və etibarlı tərəfdaşlıq prinsiplərinə əsaslanan Azərbaycan-Gürcüstan münasibətlərinin uğurla inkişaf etməsindən məmnunluq ifadə olunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin dövlətlər arasında çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsinə xüsusi önəm verdikləri qeyd olunub.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov müxtəlif ölkələrin siyasi partiyalarının gənclər təşkilatları ilə fəal əməkdaşlığın qurulduğunu vurğulayıb. O, partiyanın Gənclər Birliyinin beynəlxalq əlaqələrinin genişləndirilməsinin daim diqqət mərkəzində olduğunu söyləyib. YAP Gənclər Birliyinin sədri Bakıda keçirilən Azərbaycan-Gürcüstan Gənclər Forumunun iki ölkənin gəncləri arasında əlaqələrin inkişafına təkan verəcəyinə inamını ifadə edib.

Gürcüstan parlamentinin Təhsil, elm və gənclər komitəsi sədrinin birinci müavini Giorgi Çakvetadze iki dost və tərəfdaş ölkənin gəncləri arasında səmərəli əməkdaşlıq imkanlarının önəmini vurğulayıb. Azərbaycan-Gürcüstan Gənclər Forumunun önəmindən bəhs edən G.Çakvetadze Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi ilə çoxşaxəli əməkdaşlığın qurulması istiqamətində birgə fəaliyyətə hazır olduqlarını bildirib. Görüşdə hakim partiyaların gənclər təşkilatları arasında gələcək işbirliyinə dair ətraflı fikir mübadiləsi aparılıb.

## MEDİA: Bəzi sosial şəbəkə hesablarında Azərbaycanın bir sıra dövlət xadimləri adından reallığı əks etdirməyən açıqlamalar yayılıb




Bəzi sosial şəbəkə hesablarında Azərbaycan Respublikasının bir sıra dövlət xadimləri adından "deep fake" texnologiyası ilə hazırlanmış, reallığı əks etdirməyən açıqlamalar yayılıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin açıqlamasında bildirilib. "Qeyd edirik ki, müəyyən dairələr tərəfindən süni intellektin köməyi ilə hazırlanan və informasiya mühitində yayılan silsilə xarakterli saxta videogörüntülər ictimai rəyi çaşdırmağa yönələn kobud manipulyasiya nümunəsidir. Cəmiyyəti yalnız rəsmi mənbələrin verdiyi informasiyaya inanmağa, dövlətin rəsmi mövqeyini ifadə edən məlumatları ölkənin informasiya agentlikləri və digər peşəkar media subyektlərindən əldə etməyə çağırırıq. Azərbaycan vətəndaşlarını, jurnalistləri, ictimai fəalları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumat əsaslı kampaniyaların, "deep fake" texnologiyaları ilə məzmunyaratma tendensiyasının vüsət aldığı bir şəraitdə sayıq olmağa səsləyirik", - deyə açıqlamada vurğulanıb.

# Yaşıl rəng və yaşıl enerji ilə yaşıl dünyaya doğru...

***Təbiətin mühafizəsi bu gün bütün dünyada qlobal məsələlərdən biridir. Çünki son illərdə texnologiyanın inkişafı, insanların ətraf mühitə münasibətinin dəyişməsi fonunda hesablamalara görə il ərzində təbiətə çoxsaylı zərər vurulur. Həm də biz hər il təbiətdən il ərzində istifadə edəcəyimiz limiti aşır, gələn ilin limitindən istifadə edirik. Bu nə üçün belə olur? Çünki təbiətdən aldıqlarımızı ona geri qaytarmırıq.***

Məsələn, yanan və yandırılan meşələrdə məhv olan, susuzdan quruyan, məqsədli kəsdilən ağacların sayı qədər il ərzində ağac əkə bilirikmi? Elə məhz bu nümunə onu göstərir ki, bəli, biz təbiətdən istifadə edəcəyimiz limitdən artıq yararlanır və ildən-ilə onun zəifləməsinə səbəb oluruq. Bəs ətraf mühitin zəifləməsi bizim üçün problem deyilmi? Bu barədə düşünürükmü? Təbiətlə sıx təmasda olaraq sağlamlığımızın da sırf onunla bağlı olduğunu dərk edirikmi? İqlim dəyişmələrinə səbəb olan ölkələr var ki, bunun tək özləri üçün deyil, həm də ümumilikdə dünya üçün hansı problemləri yaratdığının ya fərqində deyillər, ya da göz ardına alırlar.



Sevindirici haldır ki, Azərbaycan nadir təbiətin, ümumilikdə ətraf mühitin qorunmasına həssaslıqla yanaşan ölkələr sırasındadır. Ötən ilin ölkədə “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2023-cü il tarixli Sərəncamı bunu təsdiqləyən amildir. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

Təsadüfi deyil ki, Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür. Digər tərəfdən ötən il BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

## Qoruqlarda qorunanlar həyatımızı qoruyur

Bizi əhatə edən 365 günün bir neçəsi dünyada təbiətin qorunması günü kimi xüsusiləşdirilib. 28 iyul da Ümumdünya Təbiəti Mühafizə Günüdür. Bu gün planetimizin təbii sərvətlərini və biomüxtəlifliyini qorumaq, həmçinin bu sahədə maarifləndirmə işlərini artırmaq məqsədi daşıyır. Eləcə də təbii sərvətlərin tükənməsinin qarşısını almaq, nəsli kəsilməkdə olan növləri qorumaq və ekoloji tarazlığı saxlamaq üçün tədbirlər görmək kimi məsələlərə diqqət çəkir. Elə isə Qoruqlarımızdan söhbət açaq. Çünki orada qorunan ərazilər, flora və fauna ümumilikdə bizim həyatımızın qorunmasına şərait yaradır. Bu sahədə ölkəmizdə vəziyyət necədir?

Dövlət təbiət qoruqları - səciyyəvi və nadir təbiət komplekslərini və obyektlərini təbii vəziyyətində qoruyub saxlamaq, təbiət proseslərinin və hadisələrinin gedişini öyrənmək məqsədilə yaradılan təbiət mühafizə və elmi müəssisə və ya təşkilat statusuna malik olan ərazilərdir. Dövlət təbiət qoruqlarının torpaqlarından, habelə onun hüdudlarında olan sudan, bitki və heyvanlar aləmindən təsərrüfat məqsədləri üçün istifadə edilməsi qadağandır. Çünki xüsusi mühafizə olunan təbiət əraziləri sayı azalmaqda və nəsli tükənməkdə olan bitki və heyvan növlərini qorumağa hesablanıb. Qoruqların torpaq sahəsi də, ərazidəki su mənbələri də bu amilə xidmət edir. Azərbaycanda ilk qoruq olan Göy-göl Dövlət Təbiət Qoruğu 1925-ci ildə yaradılmışdır. 1929-cu ildə Qızılağac və Zaqatala qoruqları və 1936-cı ildə Hirkan qoruğu təsis edilmişdir. Beləliklə, 1958-ci ilə qədər ölkədə 4 qoruq fəaliyyət göstərmişdir.

1958-ci ildən başlayaraq 1990-cı ilə kimi qoruqların yaradılması prosesi davam etdirilmiş və yeni qoruqlar təşkil olunmuşdur. 1990-cı ildə Altıağac Dövlət Təbiət Qoruğu yaradılmışdır. 2003-cü ildə Naxçıvan Muxtar Respublikasında Şahbuz, 2004-cü ildə isə Eldar şamı, 2007-ci ildə Bakı və Abşeron yarımadasının Palçıq Vulkanları Qrupu, 2008-ci ildə isə Korçay Dövlət Təbiət Qoruğunun əsası qoyulmuşdur. Eyni zamanda 2003-cü ildə Türyançay, Pirqulu, İlisu, Qarayazı, İsmayıllı, 2008-ci ildə isə Zaqatala Dövlət Təbiət Qoruğunun əraziləri 2-3 dəfədən çox genişləndirilmişdir.

## Milli parklar-estetik zövqün ünvanı...

Məlumata əsasən Azərbaycanda hazırda ölkə ərazisinin 4,87 % təşkil edən 10 milli park fəaliyyət göstərir. Milli parklar - xüsusi ekoloji, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət komplekslərinin yerləşdiyi və təbiəti mühafizə, maarifçilik, elmi, mədəni və digər məqsədlər üçün istifadə olan təbiəti mühafizə və elmi müəssisə və ya təşkilat statusuna malik olan ərazilərdir.

Azərbaycan Respublikasında milli parkların yaradılması ilə bağlı ilk təşəbbüs Akademik Həsən Əliyev tərəfindən irəli sürülüb. Ölkəmizdə ilk milli parklar 2003-cü ildə yaradılıb. Daha sonrakı dövrdə bu ənənə davam etdirilib və son olaraq, 2018-ci ilin sentyabrında Xəzər dənizinin sahilində 99 060 hektarlıq ərazidə Qızılağac Dövlət Təbiət Qoruğunun bazasında yeni milli park - Qızılağac Milli Parkı yaradılıb. Hazırda Azərbaycanda 893 min hektar sahəni əhatə edən mühafizə olunan təbiət əraziləri fəaliyyət göstərir. Bunlardan 10 milli park, 10 dövlət təbiət qoruğu, 24 dövlət təbiət yasaqlığıdır. Ümumilikdə, xüsusi mühafizə olunan təbiət əraziləri ölkə ərazisinin 10,31 %, ayrılıqda milli parklar ölkə ərazisinin 4,87 %, dövlət təbiət qoruqları 1,39 %, dövlət təbiət yasaqlıqları isə 4.05 %-ni təşkil edir.

## Azad torpaqlar: dövlət təbiət qoruqları və yasaqlıqlar

Məlum olduğu kimi ermənilər 30 il ərzində Qarabağda və Şərqi Zəngəzurun işğal edilmiş ərazilərində vəhşi terror aktları həyata keçiriblər. Soydaşlarımız kimi, həmin ərazilərdə yerləşən tarixi-mədəniyyət abidələri, yaşayış binaları, sosial obyektlər, eləcə də təbii resurslarımız da həmin terrorun qurbanına çevrilib. Beləliklə yüz minlərlə hektar sahədə təbii sərvətlərimiz məhv edilib.

2020-ci ildə 44 günlük müharibə və 2023-cü ildə 24 saatlıq antiterror tərdbirləri torpaqlarımızın bütövlükdə azadlığı, suverenliyi, ərazi böyüvlüyümüzün bərpası ilə nəticələndi. Torpaqlarımız, soydaşlarımız kimi, gözəl təbiətimiz, təbii resurslarımız da xilas edildi. Və əminik ki, onların bərpası da həmin torpaqlarda yaşayışın bərpası kimi uğurla həyata keçiriləcək. Bu barədə dövlətimizin başçısı deyib: “Azad edilmiş torpaqlarda, eyni zamanda, dövlət təbiət qoruqları və yasaqlıqlar olub. Mən bu məlumatı da Azərbaycan xalqına çatdırmaq istəyirəm. Laçın rayonunda Qaragöl Dövlət Təbiət Qoruğu 1987-ci ildə yaradılıb, 240 hektar sahəsi var idi, tamamilə məhv edilib, talan olunub və bütün ağaclar qırılıb. Zəngilan rayonunda Bəsitçay Dövlət Təbiət Qoruğu 1974-cü ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılıb. Bu, Avropada unikal meşə sayılır və burada nadir çinar ağacları var idi. Bu qoruq 107 hektarı əhatə edib, indi isə cəmi 42 hektarı qalıb. Bu, ermənivəhşiliyinin növbəti təzahürüdür. Bu, onu göstərir ki, onlar başa düşürdülər və bilirdilər ki, bu torpaqlarda müvəqqəti oturublar. Onlar bizim evlərimizi dağıdıblar, tarixi abidələrimizi dağıdıblar, məscidlərimizi dağıdıblar, meşələrimizi də dağıdıblar. Nadir çinar meşəsindən cəmi 42 hektar qalıb. Oraya da mütləq bir qrup ezam olunmalıdır, yerində təftiş aparılmalıdır və bu qoruq bərpa edilməlidir. Qubadlı Dövlət Təbiət Yasaqlığı 1969-cu ildə yaradılıb, 1988-ci ildə sahəsi 8500 hektar olub, 2020-ci ildə 6923 hektar. Yəni, 1577 hektar dağıdılıb, talan edilib. Daşaltı Dövlət Təbiət Yasaqlığı 1981-ci ildə Heydər Əliyev tərəfindən yaradılmışdır. 1988-ci ildə 400 hektar sahəsi var idi, hazırda 350 hektardır. Burada da 50 hektar dağıdılıb.

Laçın Dövlət Təbiət Yasaqlığı 1961-ci ildə yaradılıb, 1988-ci ildə 7500 hektar sahəsi var idi. Hazırda 4457 hektar qalıb, 3043 hektar ermənilər tərəfindən məhv edilib. Zəngilan rayonunda Arazboyu Dövlət Təbiət Yasaqlığı 1993-cü ildə yaradılıb, sahəsi 1700 hektar idi. Hazırda cəmi 135 hektar qalıb. Yəni, 1565 hektar məhv edilib. Bu məlumat “Azərkosmos” tərəfindən “Azərsky” peykindən götürülüb və mənə təqdim edilib. Ona görə bir daha deyirəm ki, oraya xüsusi qruplar ezam edilməlidir, yerində baxmalıdır və bu da sənədləşdirilməlidir, bunun dəymiş ziyanı da hesablanmalıdır və Ermənistanın növbəti ekoloji terroru kimi qeydiyyata alınmalıdır”.

## Naxçıvan Muxtar Respublikası, Qarabağ və Şərqi Zəngəzur yaşıl enerji zonası elan olunub

Dünyada enerji mənbələrinin tədricən tükənməsi və onlardan istifadə zamanı ətraf mühitə vurulan külli miqdarda ziyan nəzərə alınaraq, dünyanın inkişaf etmiş ölkələrində ekoloji cəhətdən təmiz alternativ (bərpaolunan) enerji mənbələrindən geniş istifadə olunur. Günəş bərpaolunan enerji sahəsində ən böyük potensialdır. Günəş enerjisini elektrik enerjisinə çevirmək yaşıl dünya qurmaqda əvəzsiz addımdır.

Külək alternativ enerji (bərpa olunan) mənbələrindən biri hesab olunur. Bu enerjinin bir hissəsi faydalı olan mexaniki və ya elektrik enerjisinə çevrilə bilər. Külək enerjisi digər alternativ enerji mənbələri olan günəş, hidroenergetika, geotermal və biokütlə enerjisindən özünün maya dəyərinə, ekoloji təmizliyinə və tükənməzliyinə görə ən sərfəlisidir

Yerləşdiyi əlverişli coğrafi mövqe və iqlim şəraiti Qarabağ, Şərqi Zəngəzur və Naxçıvanda da ekoloji cəhətdən təmiz alternativ (bərpaolunan) enerji mənbələrindən geniş istifadə edilməsinə imkan verir. Bu səbəbdən də Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunmuşdur. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə “ağıllı şəhər”, “ağıllı kənd” kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir. Hazırda Qarabağ və Şərqi Zəngəzurda 12 yerdə ekoloji cəhətdən təmiz “yaşıl enerji” istehsal edəcək su elektrik stansiyalarının tikintisi davam edir və onların bir neçəsində işlər tamamlanıb.

## Yaşıl rəng və bu rəngdə enerji dünyanı xilas edə bilər...

Dünyada demoqrafik artımla yanaşı, istehlakın kəskin artması, qlobal istiləşmə, ozon qatının zədələnməsi, təbii ehtiyatların tükənməsi kimi narahatlıq doğuran məsələlər ətraf mühitlə bağlı düşüncə və fəaliyyətlərə də öz təsirini göstərmişdir. Yeni minillikdə ekoloji tarazlığın qorunub saxlanması, təbii ehtiyatlardan rasional istifadə, su, torpaq və atmosfer havasının çirklənmədən mühafizə edilməsi ümumbəşəri probleme çevrilmişdir. Elə bu səbəbdən də bütün dünya yaşıl rəng uğrunda mübarizəyə başlayıb. Hazırda beynəlxalq aləmdə ətraf mühit komponentlərinin mühafizəsi, mövcud ekoloji problemlərin həllində mütərəqqi metodların tətbiqi həyata keçirilir. Bunu daha geniş şəkildə davam etdirməklə, yaşıl rəngi həyatımızın və sağlamlığımızın rənginə çevirə bilərik. Sevindirici haldır ki, bu, hazırda ölkəmizdə qarşıya qoyulan əsas prioritetdir.

*Mətanət Məmmədova*

# “Qayıdışın təsiri köç prosesindən sonra daha aydın görünəcək”



MÜNASİBƏT



***“Böyük Qayıdış prosesi müasir Azərbaycan tarixində həm siyasi, həm də sosial-iqtisadi baxımdan dönüş nöqtəsi kimi qiymətləndirilir. Bu təşəbbüs, yalnız insanların ata-baba torpaqlarına fiziki olaraq qaytarılması deyil, eyni zamanda onların firavan, təhlükəsiz və layiqli həyat şəraitinə inteqrasiyasını təmin edən çoxşaxəli bir milli proqramdır”. Bu sözləri SİA-ya açıqlamasında deputat Fazil Mustafa deyib.***

Fazil Mustafa sözlərinə belə davam edib: “Hazırda bu proses ilkin mərhələdə olsa da, artıq bölgədə nəzərəçarpacaq dərəcədə canlanma müşahidə olunur. Geri qayıdan hər bir vətəndaşın rahat və təhlükəsiz şəraitdə yaşaması üçün dövlət tərəfindən infrastruktur layihələri həyata keçirilir, yeni yollar, enerji və su xətləri, məktəb və tibb müəssisələri tikilir, yaşayış evləri inşa edilir. Bütün bu tədbirlər planlı şəkildə mərhələlərə ayrılmış və strateji çərçivədə icra olunur.

Qayıdışın ilk mərhələlərində daha çox dövlətin təşəbbüsü və yönləndirməsi ilə həyata keçirilən tədbirlər, yaxın gələcəkdə vətəndaş cəmiyyətinin, özəl sektorun və beynəlxalq tərəfdaşların da iştirakı ilə genişlənəcəkdir. Bu isə həm bölgədə iqtisadi fəallığın artmasına, həm də sosial-iqtisadi sabitliyin möhkəmlənməsinə səbəb olacaqdır. Beləliklə, yalnız məcburi köçkünlərin yurdlarına qayıdışı deyil, eyni zamanda Qarabağın və Şərqi Zəngəzurun ümumi dirçəlişi təmin olunacaqdır.

Hazırda bölgəyə səfər edən hər bir kəs orada müşahidə etdiyi dəyişikliklərdən təsirlənir. Uzun illər boş və viran qalan torpaqlar bu gün yeni nəfəs alır. Azərbaycan dövləti sistemli şəkildə bərpa və quruculuq işləri aparır ki, bu da yalnız texniki deyil, həm də mənəvi dəyəri olan bir prosesdir. Bu ərazilər təkcə yenidən tikilmir – onlar həm də öz kimliyinə, tarixinə və iqtisadi potensialına qovuşdurulur.

Əlbəttə, bu proses bir günlük və ya qısamüddətli tədbirlərlə yekunlaşa bilməz. Hərtərəfli planlaşdırma, vətəndaş cəmiyyətinin maarifləndirilməsi, əhalinin təhlükəsiz və davamlı məskunlaşması istiqamətində tədbirlər bir müddət də davam edəcək. Qayıdışın davamlı və dayanıqlı olması üçün həm fiziki infrastruktura, həm də sosial infrastruktur – təhsil, səhiyyə, məşğulluq və ictimai xidmətlər sahəsində inkişaf labüddür.

Azərbaycan dövləti bu məsələyə uzunmüddətli dövlət strategiyası kimi yanaşır və onu təkcə regional deyil, milli inkişafın əsas sütunlarından biri kimi qəbul edir. Dövlət başçısının iradəsi, icra strukturlarının ardıcıl fəaliyyəti və xalqın doğma torpaqlara qayıtmaq əzmi bu prosesi daha da sürətləndirir və gücləndirir.

Nəticə olaraq, Böyük Qayıdış təkcə insanların fiziki olaraq torpaqlarına qayıtması deyil, həm də onların həyatlarının keyfiyyətli şəkildə yenidən qurulması, ölkənin sosial-iqtisadi xəritəsinin yenidən formalaşdırılması və milli həmrəyliyin gücləndirilməsi istiqamətində tarixi bir addımdır. Bu qayıdışın uğurla gerçəkləşdiriləcəyinə dair ictimai inam böyükdür və real nəticələr bu inamı hər keçən gün daha da möhkəmləndirir”.

***Ayşən Vəli***






# Rusiya XİN keçmiş müavini Ermənistandaxili mübarizənin gedişatını şərh edib

***Rusiya xarici işlər nazirinin keçmiş müavini (1990-1991) Andrey Fyodorov “Moskva-Baku” portalına müsahibəsində Ermənistan hakimiyyətinin katolikosu devirmək cəhdləri ətrafında vəziyyəti təhlil edib. Diplomatın müsahibəsini oxucularımıza təqdim edirik.***



**- Andrey Vladimiroviç, Ermənistanın baş naziri Paşinyan mahiyyət etibarilə bütün ermənilərin katolikosu II Qaregini devirmək sxemini təqdim etdi. Ermənistan Nazirlər Kabinetinin rəhbəri Erməni Apostol Kilsəsinin hazırkı katolikosunun devrilməsinə və yenisinin təyin edilməsinə imkan verəcək yeni nizamnaməsinin qəbul edilməsini təklif edir. Vəziyyəti necə şərh edə bilərsiniz?**

- Bu, ilk növbədə Ermənistan daxilində parlament seçkiləri öncəsi siyasi mübarizədir, erməni apostol kilsəsinə qarşı mübarizə deyil. Və bu mübarizə çərçivəsində indiki baş nazir Paşinyan üçün çətin olan xarakterləri, qüvvələri, mövqeləri aradan götürür və ya aradan götürmək məqsədi daşıyır. Mən istisna etmirəm ki, o, bütün ermənilərin katolikosu II Qaregini aradan götürmək üçün əməliyyatı uğurla həyata keçirə bilər, çünki Erməni Apostol Kilsəsində dəyişiklik istəyənlər də var. Lakin Paşinyan hələ də çətin anlar yaşayacaq, çünki kilsə diasporda güclü şəkildə dəstəklənir.

Başa düşmək lazımdır ki, Paşinyan kilsənin əleyhinə getmir, o, katolikosa qarşı gedir və bununla oynayır. O, efirə çıxıb deyir ki, erməni apostol kilsəsinin rəhbəri üzərinə götürdüyü andı pozur, ona görə də kilsədən və Ermənistandan üz döndərən katolikosdur. Və Paşinyanın indi qurduğu və bu layihəni həyata keçirmək niyyətində olduğu “yeni Ermənistan” da yeni kilsə tələb edir. Ona görə də bu, baş nazirin kilsəyə qarşı oyunu deyil, katolikosla fərdi oyundur.

**- Katolikos əleyhinə bu addımlarda baş naziri kim dəstəkləyir?**

- Əslində bu, çox maraqlı məqamdır. Biz istər Ermənistanda, istərsə də başqa yerlərdə katolikoslara dəstək üçün kütləvi etiraz aksiyaları görmədik. Eyni zamanda, Ermənistan hakimiyyəti Erməni Apostol Kilsəsinin rəhbərini vəzifəsindən uzaqlaşdırmaq üçün çox düşünülmüş addımlar atmalıdır. Paşinyanın istefaya zəmanəti yoxdur, amma o, fəal şəkildə çalışır. Ermənistandakı Erməni Apostol Kilsəsinin nizamnaməsini dəyişdirmək o qədər də asan deyil. Və bütün bu prosesləri kimin həyata keçirəcəyi ilə bağlı aydın anlayışa malik olmalıyıq. Axı katolikosu şura seçir. Paşinyanın bunu necə edəcəyi sualdır. İndi Paşinyanın bütün hərəkətləri seçkilərdə qalib gəlməyə hesablanıb. Mümkün olan hər şeyi etdiyi tezisini daim müxtəlif istiqamətlərdə təbliğ etməyə çalışır.

Paşinyan Brüsselə gedib, fon der Leyen, Koşta ilə görüşüb, sonra dərhal Parisə gedib. Təbii ki, Aİ, xüsusilə Fransa seçkilərdə onu dəstəkləyəcək. Fransa Aİ daxilində Ermənistana cavabdeh olan əsas ölkədir. Və bu danışıqlar zamanı Paşinyana qarşıdan gələn seçkilərdə Aİ-nin Ermənistana dəstəyinə zəmanət verilib.

Paşinyanın yenidən Ermənistanın baş naziri olacağı ehtimalı yüksəkdir. Lakin katolikosu devirməyin yolu o qədər də sadə deyil. Paşinyan ölkə daxilində vəziyyətə nəzarət etməlidir.

**- Bəs Rusiya ilə münasibətləri qorumaq necə? Paşinyan Altaya gəldi...**

- Bu, tamamilə normaldır. Bu o deməkdir ki, Ermənistanın Rusiyaya “əlvida” deyəcəyi məqam hələ çatmayıb. O, Rusiyadan maksimum istifadə etmək istəyir.

***Tərcümə - Elçin Bayramlı***

# Sosial şəbəkələrdən necə istifadə edirik? - PAYTAXT SAKİNLƏRİ DANIŞDI

***Müasir dövrdə sosial şəbəkələr həyatımızın ayrılmaz hissəsinə çevrilib. İstər gənclər, istər orta yaşlılar, istərsə də yaşlı nəslin nümayəndələri gündəlik həyatlarında sosial mediadan müxtəlif məqsədlərlə istifadə edirlər. Bəziləri üçün bu platformalar məlumatalma, öyrənmək və əlaqə saxlamaq vasitəsidirsə, digərləri üçün əyləncə, tanıtım və iş imkanları təqdim edir. Lakin bu texnoloji imkanların müsbət tərəfləri ilə yanaşı, mənfi təsirləri də göz önündədir. Vaxt itkisi, psixoloji gərginlik, asılılıq və dezinformasiya kimi hallar artmaqdadır. Məsələ ilə bağlı SİA olaraq şəhər sakinlərinin fikirlərini öyrənməyə çalışdıq.***






**Şəhər sakini Leyla Ağayeva:** "Sosial şəbəkələr mənim üçün həm əyləncə, həm də təhsil üçün bir vasitədir. Xüsusilə "Instagram" və "TikTok"da ingilis dili öyrənmək, motivasiya videoları izləmək və maraqlı kitab tövsiyələri almaq mənə çox kömək edir. Eyni zamanda dostlarımla əlaqə saxlamaq, onların gündəlik həyatından xəbərdar olmaq üçün də istifadə edirəm. Amma etiraf etməliyəm ki, bəzən saatlarla sosial mediada vaxt keçirirəm və bu da dərslərimə mənfi təsir edir. Vaxt itkisinə çevrilməsi və bəzən real həyatdan uzaqlaşdırması sosial şəbəkələrin mənfi tərəfləridir".



**Şəhər sakini Samir Qafarov:** "İşimlə bağlı reklamlar paylaşmaq və fərqli dizayn trendlərini izləmək imkanım olur. Həmkarlarla əlaqədə qalmaq və yaradıcılığımı inkişaf etdirmək baxımından çox faydalıdır. Amma sosial şəbəkələrdə insanların uğurlarını davamlı görmək bəzən psixoloji təzyiq yaradır. Sanki hamı mükəmməl həyat yaşayır və bu da reallıqdan uzaq bir təsəvvür formalaşdırır".



**Şəhər sakini Telman Orucov:** "Mən sosial şəbəkələrdən əsasən pedaqoji yenilikləri izləmək və müəllim qruplarında təcrübə mübadiləsi aparmaq üçün istifadə edirəm. Onlayn (online) seminarlar, dərs nümunələri, faydalı vebinarlar mənim üçün olduqca dəyərlidir. Sosial media sayəsində müxtəlif şəhərlərdən olan müəllimlərlə tanış olmuşam. Eyni zamanda, bu platformalarda tez-tez yanlış məlumatların paylaşılması və dezinformasiyaların yayılması məni çox narahat edir. İnsanlar hər gördüyünə inanır və bu, cəmiyyətdə çaşqınlıq yarada bilər".



**Şəhər sakini Fidan Quliyeva:** "Əvvəllər sosial şəbəkələrə çox da maraq göstərmirdim, amma indi əsasən "Facebook" və "YouTube"da oluram. Müxtəlif xəbərləri izləmək, avtomobillərlə bağlı texniki məlumatlara baxmaq və digər sürücülərlə təcrübə bölüşmək üçün bu platformalardan istifadə edirəm. Sosial şəbəkələr məni məlumatlı edir. Amma bəzən əsassız xəbərlər və insanların bir-birini təhqir etməsi, aqressiv münasibətlər adamı bezdirir. Həmçinin çox vaxt alır, istədiyindən artıq ekrana baxırsan".



**Şəhər sakini Etibar Həsənov:** "Mən sosial şəbəkələrə son illər öyrəşmişəm. Daha çox "WhatsApp" və "Facebook" istifadə edirəm. Ailəm, uşaqlarım, qohumlarım xaricdə yaşadığı üçün onlarla görüntülü danışmaq, şəkil və xəbərlər paylaşmaq mənə böyük rahatlıq verir. Həm də bəzi yemək və əl işi səhifələrinə baxıram, yeni şeylər öyrənirəm. Amma bəzən görürəm ki, gənclər heç ara vermədən telefondadır. Məncə, sosial şəbəkə bir qədər məhdud istifadə olunmalıdır, yoxsa insanlar bir-birindən uzaq düşür".



**Şəhər sakini Səbinə Əlizadə:** "Sosial media işimin bir parçasıdır. Reklam strategiyaları qururam, kontent planlaması edirəm, trendləri izləyirəm. Gündəlik iş həyatımda sosial şəbəkələr olmadan işləmək mümkün deyil. Eyni zamanda şəxsi həyatımda da sosial media vasitəsilə dostlarımla əlaqə saxlayıram. Amma bəzən iş və şəxsi həyat arasındakı sərhəd itir. Günün çox hissəsi ekranda keçdiyi üçün real həyatdan bir qədər uzaqlaşıram. Buna görə balans yaratmaq vacibdir".



**Şəhər sakini Həsən Eyyubzadə:** "Sosial şəbəkələr mənim üçün həm istirahət, həm də məlumat əldə etmək vasitəsidir. "TikTok" və "YouTube"da dərslərlə bağlı çox maraqlı videolar olur. Bəzən isə sadəcə gülməli videolara baxıb stres atıram. Amma bəzən bu platformalarda həddindən artıq vaxt keçirdiyimə görə dərslərim yubanır. Özümə söz verirəm ki, azaldım, amma yenə telefona baxmağa davam edirəm. Asılılıq yarada bilər, buna görə diqqətli olmaq lazımdır".

***Ziya Hikmətoğlu***

## Ev heyvanlarını yayda küçəyə çıxarmaq nə dərəcədə təhlükəsizdir?



AYDINLIQ GƏTİRİLDİ

Yay aylarında ev heyvanlarını küçəyə çıxarmaq onların fiziki və psixoloji sağlamlığı üçün mühüm əhəmiyyət daşıyır. Əgər heyvan profilaktik prosedurlardan keçməyibsə, yəni ona qurd dərmanı verilməyibsə, parazitlərə qarşı qoruyucu tədbirlər görülməyibsə və vaksinasiya olunmayıbsa – küçəyə çıxarılması həm öz sağlamlığına, həm də ətrafdakılara təhlükə yarada bilər. Yay aylarında parazitlər və virus daşıyıcıları daha aktiv olur". Bunu SİA-ya açıqlamasında baytar həkim Cansu Məmmədova deyib.

O, həmçinin çimizdirilən heyvanların kondisioner altında saxlanılmasının da riskli olduğunu vurğulayıb: "Çimizdirildikdən sonra dərisi və tükü tam qurumamış heyvanların kondisioner havasına məruz qalması onlarda tənəffüs yolu infeksiyalarına və digər xəstəliklərə səbəb ola bilər. Bu, sahiblərin tez-tez buraxdığı səhvlərdən biridir".

Baytar, heyvan sahiblərinə aşağıdakı tövsiyələri verir:

"Heyvanlar küçəyə çıxarılmamışdan öncə vaksinlər vurulmalı, parazitə qarşı dərmanlar verilməli və baytar yoxlanışından keçməlidir;

Gəzinti yalnız səhər və axşam saatlarında, havanın nisbətən sərin vaxtlarında aparılmalıdır;



Çimizdirildikdən sonra heyvanın bədəni tam qurumalıdır, əks halda soyuma və infeksion xəstəliklər qaçılmazdır;

Baytar əlavə edib ki, bu sadə qaydalara əməl olunarsa, yay mövsümündə ev heyvanlarının həm sağlamlığı qorunacaq, həm də sahiblər arxayın şəkildə onları gəzdirə biləcəklər.

***Fatimə Əliyeva***

***Cənubi Qafqazda müxtəlif blokların silahlı qüvvələrinin fəallığı müşahidə olunur. Xəzər dənizində Rusiya-İran CASAREX 2025 təlimləri başa çatıb. Bu arada NATO-nun "Agile Spirit 2025" manevrləri Türkiyə və Gürcüstanda başlayıb və avqustun 6-da başa çatacaq.Təlimlər ABŞ və İsrailin İranı yeni zərbələrlə hədələdiyi, Ermənistan və Azərbaycanda anti-Rusiya əhval-ruhiyyəsinin artdığı bir şəraitdə keçirilir. Moskva və Tehran Xəzər dənizində və Cənubi Qafqazda öz mövqelərini müdafiə etməyə çalışacaqlar. İran KİV-lərinin məlumatına görə, birgə CASAREX 2025 təlimləri "iki ölkənin hərbi-dəniz qüvvələri arasında axtarış-xilasetmə əməliyyatları sahəsində əməkdaşlığı gücləndirmək və Xəzər dənizində naviqasiya təhlükəsizliyini təmin etmək məqsədi daşıyıb".***



# Qərbin yeni hədəfi

## *Xəzər dənizi və Zəngəzur dəhlizi Rusiya ilə Qərbin qarşıdurmasında*

Xəzər daxili dənizdir və regionun əksər dövlətlərinin mövqeyi ondan ibarətdir ki, burada qeyri-regional ölkələrin silahlı dəniz qüvvələrinə yer yoxdur. Baxmayaraq ki, bu tezisə etiraz edilir. Müşahidəçilər diqqəti Azərbaycan mətbuatında Bakının Rusiya sərhədləri yaxınlığında Türkiyə və NATO hərbi bazalarını yerləşdirə biləcəyini iddia edən nəşrlərə yönəldiblər. Məsələn, "Minval Politia" nəşri yazır: "Artan təhlükə qarşısında Bakının radikal qarşısının alınması tədbirləri nəzərdən keçirmək hüququ var. Mümkün addımlardan biri NATO bazasının Azərbaycanda, məsələn, Xaçmaz bölgəsində, Rusiya ilə sərhədlər yaxınlığında yerləşdirilməsi ola bilər. Belə bir addım beynəlxalq hüququ pozmayacaq və Azərbaycan ilə NATO arasında mövcud Fərdi Tərəfdaşlıq Fəaliyyət Planına (İPAP) əsaslanacaq".

Media Türkiyə və Azərbaycanın hərbi idarə rəhbərlərinin bu yaxınlarda imzaladığı qarşılıqlı hərbi təhlükəsizliyin gücləndirilməsinə dair anlaşma memorandumunda guya "Türkiyə hərbi bazalarının 2027-ci ilə qədər orada NATO bölmələrinin yerləşdirilməsi imkanının rəsmi açılışından" bəhs etdiyinə diqqət çəkib. Qeyd edək ki, Türkiyə ordusu de-fakto Qarabağ uğrunda müharibədən bəri Azərbaycanda "qeydiyyatdan keçib". "Rusiyanın Xəzər dənizində və bütövlükdə Cənubi Qafqazda öz maraqlarını müdafiə etmək üçün siyasi, maddi və hərbi resursları var. Rusiya və İran donanmaları birlikdə regionda əsas müdafiə yumruğunu təşkil edirlər. Və onlar bir yerdə olduqları halda üçüncü ölkədən hər hansı bir gəminin Xəzər dənizində peyda olması ehtimalı azdır. Burada Türkiyənin diplomatik bazasının açılması ehtimalı var. Bakıya münasibətdə isə Moskva və Tehran tərəfindən maddi amillər tətbiq edilməlidir", - deyə rusiyalı hərbi ekspert bildirib.

Ekspert xatırladıb ki, bu yaxınlarda İrandan iki yüksək rütbəli məmur – Ali Rəhbərin baş müşaviri Əli Laricani və müdafiə naziri Əziz Nəsirzadə Rusiyaya səfər edib. İran nümayəndələri Rusiya Federasiyasının hərbi və siyasi rəhbərliyi, o cümlədən Rusiya prezidenti Vladimir Putinlə görüşüblər. "Ola bilsin ki, Xəzər dənizində və Transqafqazda təhlükəsizliyin birgə gücləndirilməsi məsələləri müzakirə olunub", ekspert əmindir ki, NATO-nun Cənubi Qafqazda bu yaxınlarda başlayan Agile Spirit 2025 manevrlərinin məqsədlərindən biri də "Azərbaycan, Ermənistan və Gürcüstanın hərbi əməliyyatları teatrlarında alyans ölkələrinin Rusiya və İrana qarşı hərəkətlərini təcrübədən keçirməkdir".

İyulun 21-dən 23-dək Amerika paraşütçüləri türk qoşunları ilə birlikdə Kayseridə (Türkiyə) hava-desant təlimi, o cümlədən tanış olmayan dağlıq və meşəlik əraziyə paraşütlə tullanmalar təşkil edib. "Şimali Atlantika Alyansı üçün bu cür tapşırıqlar Donald Trampın rəhbərlik etdiyi ABŞ administrasiyasının təxminən 40 km uzunluğunda olan Zəngəzur dəhlizinə nəzarəti ələ keçirmək istəyi ilə əlaqələndirilə bilər. Bu, Ermənistan-İran sərhədi və Ermənistanın Zəngəzur bölgəsindəki Araz çayı boyunca yerləşən ərazidir, burada Azərbaycandan Türkiyəyə və onun daha da yaxınlığındakı Naxçıvana ən qısa quru yolu var", hərbi ekspert, uzun müddət Zaqafqaziyada Rusiya Qüvvələri Qrupunun komandirinin müavini olmuş istefada olan general-leytenant Yuri Netkaçev bildirib.

Netkaçevin sözlərinə görə, iyulun 25-dən avqustun 6-dək Gürcüstanda Ukrayna və Gürcüstan da daxil olmaqla 12 NATO ölkəsinin iştirakı ilə Agile Spirit 2025-in qərargahı və poliqon mərhələsi keçiriləcək. Ermənistan və Yaponiya müşahidəçi qismində iştirak edəcək. Manevrləri ABŞ-ın Avropa və Afrikadakı komandanlığı USAREUR-AF idarə edir. İran və Zaqafqaziya ölkələri onun maraq dairəsindədir, o cümlədən Xəzər dənizini Türkiyə və Qara dənizlə birləşdirən strateji marşrutlar. Ekspert qeyd edir ki, Pentaqonun rəhbərliyi altında "Agile Spirit 2025" Gürcüstanın Qara dəniz sahilindəki Batumi və Poti dəniz limanlarından Azərbaycan və Ermənistana gedən nəqliyyat marşrutlarının təhlükəsizliyini təmin etmək üçün tədbirlər hazırlayacaq. Görünür, ABŞ və NATO artıq bu layihəyə Zəngəzur dəhlizinə nəzarəti də daxil ediblər.

Media ABŞ-ın Ermənistandakı səfiri Kristina Kuinnin Araz vadisində kommunikasiyaların bloklanması ilə bağlı yerli hakimiyyət orqanları ilə aktiv məsləhətləşmələrə başladığını yazır. Bununla bağlı Dövlət Dumasının MDB işləri üzrə komitəsi sədrinin birinci müavini Konstantin Zatulin xatırladıb ki, Bakı ilə əvvəllər bağlanmış razılaşmalara əsasən, Azərbaycandan Ermənistan ərazisindən keçməklə Naxçıvana gedən nəqliyyat marşrutlarına nəzarət Rusiya sülhməramlıları tərəfindən həyata keçirilməlidir. Deputat hesab edir ki, "İndi Azərbaycan belə razılaşmalardan uzaqlaşmaq istəyir". O, əmindir ki, Ermənistanın baş naziri Nikol Paşinyan özü Zəngəzur dəhlizini Amerikanın nəzarətinə vermək istəyir. İrəvan amerikalıların dəstəyi ilə rus sərhədçilərinin 2025-ci il yanvarın 1-dən Ermənistan-İran sərhədini tərk etməsinə nail olub. Ermənistan mediası yazır ki, İrəvan tezliklə Kollektiv Təhlükəsizlik Müqaviləsi ilə bağlı müqavilədən rəsmən çıxacaq və Rusiyanın Gümrüdəki 102-ci hərbi bazasının çıxarılmasını tələb edəcək. Bəs onların yerinə kim gələcək? Amerikalılar və digər NATO ölkələri. Rusiya buna yol verməyəcəklərini deyirlər. Rusiyanın vəziyyəti düzəltmək və Cənubi Qafqazda geosiyasi maraqlarını müdafiə etmək üçün siyasi, diplomatik, iqtisadi və digər təsir rıçaqlarının olduğundan da danışırlar. İran bu işdə ona kömək edə bilər.

### Zəngəzur dəhlizi yox, tələ?

Türkiyənin "Aydınlık" qəzeti yazır ki, Zəngəzur dəhlizinə nəzarəti ələ keçirməklə ABŞ İsraillə birlikdə Rusiyaya bitişik ərazilərdə mövcudluğunu gücləndirir. Bu, Qafqazda gərginlik və hətta müharibəyə səbəb ola bilər. ABŞ özü iddia edir ki, bu müdaxilə Azərbaycanla Ermənistan arasında uzun müddətdir davam edən mübahisəyə son qoyub. Ermənistan faktiki olaraq Zəngəzur dəhlizini ABŞ-a verir. Regionda geostrateji güc balansını sarsıdacaq bu addım ABŞ və İsrail üçün Qafqazda yeni təsir dairəsi açır. Türkiyə nəinki Rusiya və İranla münasibətlərini ciddi şəkildə pozacaq, həm də öz təhlükəsizliyini təhdid edəcək bir yola sövq edilir. Ermənistan hökuməti Vaşinqtonla Zəngəzur dəhlizinin 42 kilometrlik hissəsinin 99 il müddətinə ABŞ-a verilməsi barədə razılığa gəlib. İspaniyanın Periodista xəbər saytının Fransadakı erməni diasporundan əldə etdiyi və "Aydınlıq" mənbələrinin də təsdiqlədiyi məxfi memoranduma görə, İran sərhədi boyunca uzanan Zəngəzur bölgəsində iqtisadi və hərbi dəhliz planlaşdırılır. Bura Azərbaycanı Naxçıvan, sonra isə Türkiyə ilə birləşdirən Zəngəzur dəhlizinin əsas halqasıdır. 2020-ci ildə Dağlıq Qarabağ müharibəsindən sonra Naxçıvan marşrutunun açılması Azərbaycanın əsas tələblərindən biri olub.

### Şimal-şərqin mühasirəsi

Amerika layihəsi müttəfiqlərə fasiləsiz ticarət axını vəd edir, lakin Qafqazda yeni Soyuq Müharibə və ya hətta qaynar münaqişəyə səbəb ola bilər. Layihə potensial olaraq təkcə Rusiya və İran üçün deyil, həm də Türkiyə üçün strateji mühasirə ilə nəticələnə bilər. Planın bir hissəsi olaraq, dəhliz Amerika şirkəti tərəfindən idarə olunacaq, təhlükəsizliyi isə özəl hərbi şirkətlər tərəfindən təmin edilən min silahlı döyüşçü təmin edəcək. Baxmayaraq ki, razılaşmaya əsasən, dəhliz Ermənistanın nəzarətində qalacaq, qüvvələrinin yerləşdirilməsi faktiki olaraq bölgənin artıq İrəvanın nəzarətində olmayacaq. Bu qüvvələr əsasən ABŞ və Qərb ordularından təqaüdə çıxmış muzdlulardan ibarət olacaq.

### İqtisadi nəzarət də ABŞ-ın əlindədir

Maliyyə strukturu da Vaşinqtonun xeyrinə formalaşıb. Dəhlizdən əldə edilən gəlirin 40%-i Amerika əməliyyat şirkətinə veriləcək, Ermənistan isə cəmi 30%-lik payla kifayətlənmək məcburiyyətindədir. Bu isə iqtisadi suverenliyin məhdudlaşdırılmasını nəzərdə tutur. Periodista xəbər verir ki, Ermənistan, Azərbaycan və ABŞ arasında "Tramp körpüsü nəqliyyat dəhlizinin yaradılmasına dair Anlaşma Memorandumu" adlı sənəd imzalanıb. ABŞ-ın Türkiyədəki səfiri Tomas Barak iyulun 17-də bildirib ki, Vaşinqton bölgəni "icarəyə götürmək" istəyir. Barak jurnalistlərə bildirib ki, Azərbaycan və Ermənistan arasında dəhlizlə bağlı mübahisələr "ABŞ sayəsində" həll olunacaq. "Tərəflər 32 kilometr yol üzərində uzanan mübahisəyə qarışıb. Münaqişə onilliklər ərzində səngimir. Nəhayət, Amerika müdaxilə etdi və təklif etdi: "Yaxşı, biz bunu öz üzərimizə götürəcəyik. Bizə 100 il müddətinə 32 kilometrlik yol verin və birlikdə istifadə edin".

Azərbaycan bütün bu müddət ərzində Ermənistandan Naxçıvana nəqliyyat dəhlizinin açılmasını tələb edib. Lakin iyulun əvvəlində Ermənistanın baş naziri Nikol Paşinyan bu təklifə loyal münasibətini bir daha nümayiş etdirib. Onun sözlərinə görə, dəhliz Azərbaycanın nəzarətinə keçə bilməz və məsələ qarşılıqlı ərazi bütövlüyü və bərabərlik prinsipləri əsasında həll edilməlidir. ABŞ-ın "bitərəflik" adı altında layihəyə cəlb olunması, görünür, Paşinyanın etirazlarını puça çıxarıb.

### Dəhlizin potensialı

Forbes jurnalı Barakın bəyanatından dərhal sonra ABŞ-ın dəhlizdə dominantlıq etmək niyyətindən yazıb və layihəni Amerikanın regionda öz təsirini gücləndirmək üçün "yaradıcı" cəhdi adlandırıb. Jurnalın məlumatına görə, dəhlizdən potensial illik gəlir 50-100 milyard dollar arasındadır. Üstəlik, logistikaya qoyulan investisiyalar sayəsində ticarət həcminin sürətlə artması gözlənilir.

Forbes qeyd edir ki, dəhliz Azərbaycana Türkiyə vasitəsilə Avropaya neft ixracını genişləndirməyə imkan verəcək. Ukrayna münaqişəsi fonunda Avropa İttifaqı Rusiyadan enerji idxalını azaltmağa çalışır və bu cür alternativ marşrutlara üstünlük verir. Deməli, layihənin indiki formada həyata keçirilməsi Avropanın enerji təhlükəsizliyi baxımından da əlbədicidir. Jurnal hesab edir ki, "Avropanın 2030-cu ilə qədər qeyri-rus mənbələrindən əlavə 20 milyard kubmetr təbii qaza ehtiyacı olacaq. Ermənistan və Türkiyə arasında sərhədlərin normallaşdırılması Xəzərin ehtiyatlarına çıxışı genişləndirə və BP kimi şirkətlər üçün idxal xərclərini 10-15% azalda bilər". Bu gedişat həm də onu göstərir ki, ABŞ-ın regiondan çıxması ilə bağlı Trampın dövründə səslətdirilən bəyanatlar əslində heç bir məna daşımır. Dəhlizdə Vaşinqtonla əlaqəli hərbi birləşmələrin daimi yerləşdirilməsi Amerikanın İranla sərhəddə və Rusiyaya bitişik ərazilərdə mövcudluğunu gücləndirmək üçün daha geniş strategiyanın bir hissəsidir. Regionda amerikapərəst qüvvələrin mövcudluğu mövcud geosiyasi qüvvələr balansını ciddi şəkildə sarsıda bilər. Üstəlik, İsrailin ABŞ vasitəsilə İranla sərhəddə təsirini və Azərbaycanla münasibətlərini artıracağı gözlənilir.

**V.VƏLİYEV**



# Altı yaşayış məntəqəsini birləşdirən avtomobil yolu

*Dövlət başçısının Sərəncamına əsasən, Dəllər Cəyir–Dəllər Daşbulaq və Qədimqala–Miskinli–Keçili–Xuluf avtomobil yollarının əsaslı təmirinə 2,0 (iki) milyon manat ayrılıb*

***Bəşəriyyət daim inkişaf edir, texnologiyalar təkmilləşir, görülən işlərin hər biri insanların rahat, firavan, sağlam həyat sürməsinə yönəldilib. Azərbaycanda yol infrastrukturuna ayrılan diqqət ölkəmizə müasir görkəm verməklə yanaşı, üzləşdiyimiz nəqliyyat axınında sıxlığın azaldılmasında da mühüm rol oynayır. Beynəlxalq tələblər səviyyəsində qurulan yollar, inşa olunan yeni körpülər, tunellər əlbəttə ki, piyadaların və sürücülərin rahat hərəkətində önəmli faktordur. Müasir dövrümüzdə avtomobil yollarının tikintisi və yenidən qurulması işlərinin həcmi ilbəil artır. Yol infrastrukturunun müasir tələblər səviyyəsində qurulması prioritet vəzifələrdəndir. Son illərdə regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurla icrası nəticəsində ölkəmizdə magistral, respublika və yerli əhəmiyyətli avtomobil yolları əsaslı şəkildə yenidən qurulub. Azərbaycan Prezidentinin çıxışlarının birində bildirdiyi kimi, "Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, siyasətimizin təməlində Azərbaycan vətəndaşının maraqları dayanır. Eyni zamanda, bizim əsas strateji məqsədimiz, hədəfimiz ölkəmizi daha da gücləndirməkdir, Azərbaycan dövlətinin qüdrətini artırmaqdır, müstəqilliyimizi möhkəmləndirməkdir".***

Qarşıya qoyulan vəzifələrin uğurlu icrası sayəsində respublikamızın bütün bölgələrinin siması tamamilə dəyişmiş, rayonların ucqar kəndləri belə qazlaşdırılıb, yaşayış məntəqələri içməli su ilə təmin olunub və demək olar ki, şəhərlə kənd arasındakı fərq aradan qaldırılıb. Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar ölkədə yol infrastrukturunun təzələnməsini daha da sürətləndirir. Həmin yollar hesabına təbii ki, regionların iqtisadi potensialı da yüksəlir.

Son günlər yol infrastrukturu ilə bağlı Cənab Prezidentin imzaladığı sərəncamlar diqqət çəkəndir. Bildiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev "Sabirabad rayonunun Hacıqabul–Bəhrəmtəpə–Mincivan (10 km)–Sabirabad avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında" Sərəncam imzaladı. Sərəncama əsasən, altmış bir min nəfər əhalinin yaşadığı 15 yaşayış məntəqəsini birləşdirən Hacıqabul–Bəhrəmtəpə–Mincivan (10 km)–Sabirabad avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 2,1 milyon (iki milyon bir yüz min)



manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

## "MÜASİR İNFRASTRUKTUR VƏ YOL OLMADAN İQTİSADİ İNKİŞAF MÜMKÜN DEYİL"

Ölkə regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramları təsdiq edilərkən qarşıya qoyulan başlıca hədəflər arasında yol təsərrüfatının bərpası, yenidən qurulması və müasir standartlara çatdırılması xüsusi yer tutub. "Müasir infrastruktur və yol olmadan iqtisadi inkişaf mümkün deyil" - deyən Azərbaycan Prezidenti buna nail olmaq məqsədilə yol qurğularının, eləcə də ölkənin bütün regionlarını və yaşayış məntəqələrini birləşdirən avtomobil yollarının yenidən qurulması və tikintisi üzrə irimiqyaslı layihələr həyata keçirilməsinə diqqət ayırır. Prezident İlham Əliyev bölgələrə, demək olar ki, bütün səfərləri zamanı respublika və yerli əhəmiyyətli yolların yenidən qurulması, hətta ucqar dağ kəndlərinə yeni yolların çəkilməsi ilə bağlı konkret tapşırıqlar verir.

Bunun nəticəsi olaraq Lənkəran-Lerik, Masallı-Yardımlı, Gəncə-Daşkəsən-Xoşbulaq, Quba-İspik-Xınalıq, Şamaxı-Pirqulu, Tovuz-Əlibəyli, Şəmkir-Gədəbəy, İsmayıllı-Qəbələ, Xaldan-Mingəçevir, Ağdaş-Ləki, Quba-Qəçrəş-Qımılqazma, Qəbələ-Ağdaş, Oğuz-Qəbələ, Quba-Qusar, Şəki-Qax, Ağstafa-Poylu-Gürcüstan sərhədi, Yevlax-Bərdə və digər avtomobil yolları yenidən qurulmuş, ölkədaxili yol infrastrukturu əhəmiyyətli dərəcədə inkişaf etmişdir.

Görülən işlərin davamı olaraq, Azərbaycan Prezidenti "Şəmkir rayonunun Dəllər Cəyir–Dəllər Daşbulaq və Qədimqala–Miskinli–Keçili–Xuluf avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, iyirmi min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Dəllər Cəyir–Dəllər Daşbulaq və Qədimqala–Miskinli–Keçili–Xuluf avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 2,0 (iki) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

## GÜCLÜ İQTİSADİYYATIN ƏSAS GÖSTƏRİCİLƏRİ

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının qəbulu və qarşıya qoyulan vəzifələrin uğurlu icrası nəticəsində ölkə iqtisadiyyatının dayanıqlı və dinamik inkişafı təmin edilib. Regionlarda yeni iş yerlərinin açılması və qeyri-neft sektorunun inkişafı, daha çox valyuta gətirən strateji əhəmiyyətli kənd təsərrüfatı məhsullarının istehsalının artırılması üçün bütün imkanlardan istifadə edilməsi əhalinin məşğulluğunu daha da artırmışdır.

Bu gün Azərbaycan həm sosial, həm siyasi, həm də iqtisadi sahədə dünyaya inkişafın yeni modelini nümayiş etdirir. Azərbaycanda yol infrastrukturunun inkişafı dövlətin mühüm prioritetləri sırasındadır. Respublikada yol təsərrüfatının bərpası, yenidən qurulması və müasir standartlara uyğunlaşdırılması istiqamətində işlər böyük sürətlə davam etdirilir. Həyata keçirilən məqsədyönlü işlər nəticəsində yol-nəqliyyat kompleksinin ayrı-ayrı qurğuları yüksək keyfiyyətlə tikilərək istismara verilir. Respublikamızın paytaxtında, eləcə də regionlarda kənd və qəsəbələri birləşdirən yolların, yaşayış məntəqələrinin daxili yollarının təmirinə və yenidən qurulmasına ayrılan diqqətin nəticəsində yol şəbəkəsi genişlənir, infrastruktur təzələnir. Bu istiqamətdə işlər hazırda da davam etdirilir.

## 335 ƏDƏD KÖRPÜ VƏ YOL ÖTÜRÜCÜSÜ TİKİLİB

Bölgələrdə yeni zavod, fabrik və digər istehsal müəssisələrinin fəaliyyətə başlaması işsizlik problemini aradan qaldırmaqla yanaşı, regionların malik olduğu potensialdan düzgün istifadə mexanizmlərini də üzə çıxarır. Son 22 ilin reallıqları bir daha göstərir ki, ölkəmizdə icra olunan islahatlar, həyata keçirilən dövlət proqramları bütün sahələrdə uğurların əldə olunması ilə nəticələnib. Qarşıya qoyulan vəzifələrin uğurlu icrası sayəsində respublikamızın bütün bölgələrinin siması tamamilə dəyişmiş, rayonların ucqar kəndləri belə qazlaşdırılıb, yaşayış məntəqələri içməli su ilə təmin olunub və demək olar ki, şəhərlə kənd arasındakı fərq aradan qaldırılıb. Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar ölkədə yol infrastrukturunun təzələnməsini daha da sürətləndirir. Bölgələrdə yaşayan əhalinin gediş-gəlişi asanlaşır və yetişdirdikləri məhsulun mərkəzə daşınmasında əvvəllər mövcud olan çətinliklər aradan qalxır. Həmin yollar hesabına təbii ki, regionların iqtisadi potensialı da yüksəlir. Ölkənin istehsal və sənayenin bütün sahələrinin inkişafı birbaşa olaraq yol örtüyünün hansı vəziyyətdə olmasından asılıdır.

Ölkədə son illər ərzində yol-nəqliyyat infrastrukturu sahəsində əhəmiyyətli islahatlar həyata keçirilmişdir. Şəhər ərazisindəki yol şəbəkəsinin təkmilləşdirilməsi, yeni yol kəsişmələrinin və körpülərin tikilməsi, həmçinin tıxacların azaldılması məqsədilə müxtəlif layihələr icra edilmişdir. Son 22 ildə Azərbaycan Respublikasında yol infrastrukturunun inkişafı sahəsində əsas nailiyyətlərdən biri ümumilikdə 20,8 min km uzunluğunda yeni yolların tikilməsi, yenidən qurulması və təmir olunmasıdır. Bundan əlavə, ümumi istifadədə və Bakı şəhərində olan avtomobil yollarında ümumilikdə 335 ədəd körpü və yol ötürücüsü tikilmiş, 56 ədədi təmir edilmiş, 163 ədəd yeraltı və yerüstü piyada keçidi və 45 ədəd tunel tikilmişdir. İşğaldan azad olunmuş ərazilərdə ümumi uzunluğu 3.4 min km təşkil edən 44 avtomobil yolu layihəsi icra edilir ki, onlardan ümumilikdə 0.3 min km (6 layihə tamamilə, 1 layihə isə qismən) tikilib başa çatdırılmışdır.

Müasir nəqliyyat-yol infrastrukturunun yaradılmasını qarşıya əsas hədəf kimi qoyan Prezident İlham Əliyev avtomobil yollarının, yol qurğularının açılış mərasimlərində şəxsən iştirak edir, habelə işlərin gedişi ilə tanış olaraq öz dəyərli tapşırıq və tövsiyələrini verir.

Bildiyimiz kimi, "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi məqsədi daşıyır. İctimai nəqliyyatın əhatə dairəsinin genişləndirilməsi və nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi (yeni avtomobil yollarının tikintisi, müxtəlif səviyyəli yol qovşaqlarının inşası, avtobus və velosiped zolaqlarının çəkilməsi), alternativ nəqliyyat həllərinin (velosiped və kiçik elektrik nəqliyyat vasitələri) təşviqi, piyada hərəkətinin təşviqi, ekoloji təmiz nəqliyyat vasitələrindən istifadənin artırılması, yol hərəkəti təhlükəsizliyinin səviyyəsinin yüksəldilməsi kimi əhəmiyyətli məsələlər qeyd olunan Sənəddə əsas məqsəd olaraq qarşıya qoyulub.

***Nəzakət ƏLƏDDİNQIZI***

# “Vasitəçilik təşəbbüsü Azərbaycanın beynəlxalq imicini daha da gücləndirir”



*“Azərbaycanın İsrail və Suriya arasında vasitəçilik təşəbbüsü, təkcə regionda yeni diplomatik çəki qazanmaq deyil, həm də Azərbaycanın uzunmüddətli, praqmatik və balanslaşdırılmış xarici siyasətinin məntiqi və strateji nəticəsi kimi qiymətləndirilməlidir. Bu təşəbbüsün arxasında Azərbaycanın milli maraqları, təhlükəsizlik prioritetləri, beynəlxalq nüfuz strategiyası və yeni dünya düzənində tutduğu yer dayanır”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Polad Mehdiyev deyib.*

Onun sözlərinə görə, Prezident İlham Əliyevin 20 ildən artıq davam edən liderliyi dövründə Azərbaycan beynəlxalq arenada “bir tərəfli bağlılıqdan” kənar, çoxvektorlu, balanslı və maraqlara əsaslanan diplomatiya formalaşdırıb. Azərbaycan eyni zamanda ABŞ-la strateji tərəfdaşlıq qurub, Rusiya ilə əməkdaşlıq edib, Avropa İttifaqı ilə enerji əməkdaşlığını gücləndirib, Türkiyə ilə müttəfiqliyi dərinləşdirib, eyni zamanda İsrail və ərəb ölkələri ilə paralel əlaqələr saxlayıb: ”Bu siyasət nəticəsində Azərbaycan bu gün İsraillə də, Suriya ilə də eyni masa ətrafında danışa biləcək yeganə ölkələrdən biridir. Bu isə diplomatik etimadın zirvəsidir. İsrail–Suriya münaqişəsinin yumşaldılması Azərbaycanın yaxın coğrafiyasında təhlükəsizlik və sabitlik mühitini gücləndirir. İrana qonşu və strateji əhəmiyyətə malik Suriyada balansın bərpası Azərbaycan üçün iki cəhətdən əhəmiyyətlidir: 1) Təhlükəsizlik: İranın Suriya üzərindən bölgədə təsirini genişləndirməsi Azərbaycanın milli təhlükəsizliyi üçün risklər doğurur. Bakı isə bu təsiri balanslaşdırmaqda maraqlıdır.

2) İqtisadi imkanlar: Yeni Suriya rəhbərliyi ilə enerji və infrastruktur layihələrinə çıxış imkanı əldə etmək Azərbaycanın iqtisadi diplomatiyasına yeni istiqamətlər açır.

Qeyd eləmək lazımdır ki, Azərbaycanla İsrailin müttəfiqlik münasibətləri mövcuddur. Prezident İlham Əliyevin rəhbərliyi ilə İsrail-Azərbaycan münasibətləri strateji səviyyəyə yüksəlib. Bu etibarlı əlaqə Azərbaycanın İsrailin xarici siyasətində xüsusi status qazanmasına və Tel-Əvivin Azərbaycanın vasitəçi roluna güvənməsinə səbəb olub. Eyni zamanda Azərbaycanı həm də müsəlman dünyasının etibarlı üzvüdür. İƏT çərçivəsində Fələstin məsələsində ədalətli mövqe nümayiş etdirib, ərəb dövlətləri ilə yaxın münasibətlər formalaşdırıb. Bu isə Bakıya imkan verir ki, həm İsraillə, həm də ərəb dövlətləri ilə eyni vaxtda diplomatik manevr etsin. Bu balanslı siyasət indi Suriya ilə də münasibətlərin yenilənməsində və vasitəçilik təşəbbüsündə öz bəhrəsini verir.

Digər bir məsələ Azərbaycanın qardaş Türkiyə ilə sinxron xarici siyasət modeli qurulmasıdır. Ankara ilə koordinasiyalı diplomatiya nəticəsində Azərbaycan həm türk, həm müsəlman dünyasında söz sahibi olur. İsrail və Türkiyənin də Suriya ilə bağlı ziddiyyətli maraqları olduğu halda, Azərbaycan onların arasında diplomatik körpü rolunu oynamaq imkanını qazanır. Bu isə regionda lider dövlət imicinin formalaşması baxımından strateji əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin uğurlu xarici siyasətinin nəticəsində Azərbaycan artıq BMT, Qoşulmama Hərəkatı, İƏT kimi qurumlarda aktiv və təşəbbüskar üzv kimi tanınır. İsrail–Suriya dialoquna ev sahibliyi və bu istiqamətdə vasitəçilik təşəbbüsü Azərbaycanın beynəlxalq imicini daha da gücləndirir.

Azərbaycanın İsrail–Suriya arasında vasitəçilik təşəbbüsü,

1) milli maraqlara cavab verir,

2) ölkəmizin çoxşaxəli və çevik diplomatiyasının uğurudur,

3) Azərbaycanın regional liderliyini və beynəlxalq nüfuzunu artırır,

4) Qlobal sistemdə “kiçik, amma strateji güc” modelinə uyğun şəkildə yeni mərhələyə keçdiyini göstərir”.

***Ziya***

# “Mina problemi təkcə texniki yox, həm də humanitar təhlükədir”

“2020-ci ildə Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərdə qarşıda duran əsas vəzifələrdən biri həmin torpaqların mina və partlamamış hərbi sursatlardan təmizlənməsi oldu. Bu günə qədər görülən işlərə nəzər saldıqda deyə bilərik ki, mina təmizləmə prosesi həm miqyas, həm də icra baxımından olduqca geniş və çətin bir mərhələdir. Lakin Azərbaycan bu prosesi mərhələli və sistemli şəkildə həyata keçirir”. Bu sözləri SİA-ya açıqlamasında hərbi ekspert Ramil Məmmədli deyib. Onun sözlərinə görə, əsas mina təmizləmə işləri ANAMA – Azərbaycan Respublikası Minatəmizləmə Agentliyi tərəfindən həyata keçirilir. Bununla yanaşı, Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi və Dövlət Sərhəd Xidməti də prosesə cəlb olunub: ”Ərazilərin təhlükəsiz hala gətirilməsi üçün ən müasir texnologiyalar, xüsusi təlim keçmiş kinoloji qruplar və əl ilə təmizləmə üsulları istifadə olunur. Beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində bəzi ölkələrdən texniki və peşəkar dəstək də alınır. Bugünkü vəziyyətə baxsaq, minalardan ən çox təmizlənmiş və bərpa işlərinə start verilmiş ərazilər sırasında Zəngilan rayonunun Ağalı kəndi, Füzuli şəhərinin mərkəzi, Cəbrayılın bəzi kəndləri və Şuşa şəhərinə gedən yol boyunca olan ərazilər yer alır. Bu ərazilərdə artıq infrastrukturun qurulması, yolların çəkilməsi, su,



**HƏRBİ EKSPERT DANIŞDI**

qaz və elektrik xətlərinin çəkilməsi, məktəb və xəstəxanaların tikilməsi kimi addımlar atılıb. Bu isə yalnız mina təhlükəsi aradan qaldırıldıqdan sonra mümkündür.

Xüsusi olaraq vurğulamaq lazımdır ki, mina problemi təkcə texniki yox, həm də humanitar təhlükədir. Müharibədən sonra mina partlayışları nəticəsində hərbçilərlə yanaşı, çoxsaylı mülki şəxslər – o cümlədən fermerlər, jurnalistlər və tikinti işçiləri həlak olub və ya xəsarət alıb. Ermənistan tərəfindən təqdim olunan mina xəritələrinin təxminən 25%-ə qədəri dəqiq olub, qalan məlumatlar isə ya qeyri-dəqiq, ya da tamamilə uyğunsuz olub. Bu da təmizləmə işlərini xeyli ləngidir. Mina təmizləmə prosesi dövlətin prioritet istiqamətlərindən biridir. Azərbaycan bu sahədə həm texniki imkanlarını, həm də beynəlxalq əməkdaşlığını genişləndirərək işğaldan azad olunmuş torpaqları təhlükəsiz və yaşayış üçün yararlı məkana çevirməkdə qərarlıdır”.



***Z. Hikmətoğlu***

# “Dərman vasitələrinin humanitar məqsədlər üçün idxalı Qaydası” dəyişib

***Nazirlər Kabineti 25 sentyabr 2005-ci il tarixli qərarı ilə təsdiq edilmiş “Dərman vasitələrinin humanitar məqsədlər üçün idxalı Qaydası”nda dəyişiklik edib. SİA xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.***

nə daxil olan humanitar yüklərin qəbul edilməsi, uçotunun aparılması, təyinat yerinə çatdırılması, saxlanılması, mühafizəsi və bölgüsü Qaydaları”nda dəyişiklik edib. Ə.Əsədovun imzaladığı yeni qərara əsasən, bundan sonra mövcud tələbat nəzərə alınmaqla, humanitar yüklərin qəbul edilməsi məsələsi Nazirlər Kabinetinin razılığı əsasında rəsmiləşdiriləcək.

Həmçinin humanitar yükün Nazirlər Kabinetinin razılığında və gömrük bəyan-



*Bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb*

Qərara əsasən, bundan sonra humanitar məqsədlər üçün Azərbaycan ərazisinə gətirilən dərman vasitələri gömrük məntəqələrində rəsmiləşdirilərkən, həmin dərman vasitələrini gətirən ərizəçilər Nazirlər Kabinetinin razılığını gömrük orqanlarına təqdim etməlidirlər. İndiyədək Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının razılığı tələb olunurdu.

Nazirlər Kabineti həmçinin 15 sentyabr 2022-ci il tarixli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisinamənsində göstərilən məlumatlara uyğunluğu müəyyən olunduqdan sonra həmin yük qəbul ediləcək. Yükün rəsmiləşdirilərək qəbul edilməsi, həmçinin aşkar olunan kənarlaşma və bunun səbəbləri barədə məlumatı “Beynəlxalq Humanitar Yardım üzrə Dövlət Komissiyası haqqında Əsasnamə”nə uyğun olaraq Dövlət Gömrük Komitəsi Nazirlər Kabinetinə göndərəcək. İndiyə qədər bu sənədlərə Beynəlxalq Humanitar Yardım üzrə Dövlət Komissiya baxırdı.



# DİQQƏT: İnsanlar bu saatlarda açıq havada qalmaqdan çəkinməlidirlər!



## Həkim mühüm detalları açıqladı

“Yay mövsümündə ən çox rast gəlinən hallardan biri günvurma, digəri isə qida zəhərlənmələridir. Havanın temperaturunun artması və günəş şüalarının intensivliyi bədəndə istilik balansını poza bilər. Bu da xüsusən risk qrupuna daxil olan insanlar – yaşlılar, uşaqlar, xroniki xəstəliyi olan şəxslər üçün təhlükə yaradır. Termorequlasiya sisteminin zəifləməsi səbəbilə yaşlı insanların orqanizmi isti ilə daha çətin mübarizə aparır”. Bu sözləri SiA-ya açıqlamasında ailə həkimi Fidan Həsənli deyib.

Onun sözlərinə görə, uşaqlarda isə dərinin qoruyucu funksiyası və mübadilə prosesi tam formalaşmadığından günvurma riski daha yüksək olur. Bundan əlavə, ürək-damar sistemi, tənəffüs sistemi, şəkərli diabet, bəzi autoimmun və onkoloji xəstəlikləri olan şəxslər, immuniteti zəif olan insanlar, eləcə də dərisində melanin az olan şəxslər (ağdərililər) günəş şüalarına qarşı daha həssas sayılır və günorta saatlarında, xüsusilə 12:00-dan 16:00-a qədər açıq havada qalmaqdan çəkinməlidirlər: ”Profilaktik tədbir olaraq, həmin saatlarda açıq havada olmağa çalışmamaq, gün eynəklərindən, baş örtüyündən və günəş qoruyucu kremlərdən (SPF) istifadə etmək, kifayət qədər su qəbul etmək və fiziki aktivliyi minimuma endirmək tövsiyə olunur. Günvurma halı baş verdikdə isə zərərçəkən dərhal kölgəyə və ya sərin yerə aparılmalı, üst geyimi çıxarılmalı, bədənindəki artıq əşyalar uzaqlaşdırılmalı və bədənə, xüsusilə boyun nahiyəsinə soyuq kompress qoyulmalıdır. Əgər şüuru yerindədirsə, sərin su içirilməsi məsləhətdir. Lakin başgicəllənmə, halsızlıq, qusma, bayılma, yüksək bədən temperaturu, nəbzin sürətlənməsi, tərləmənin dayanması və huşun itirilməsi kimi hallar müşahidə olunarsa, dərhal Təcili Tibbi Yardıma məlumat verilməlidir. Günvurma həyati təhlükə daşıya biləcək vəziyyətdir və bu səbəbdən son dərəcə diqqətli olmaq vacibdir.

Yay mövsümündə rast gəlinən digər təhlükəli hal isə qida zəhərlənmələridir. İsti hava şəraiti bakteriyaların çoxalmasını sürətləndirdiyi üçün ət, süd məhsulları, yumurta, kolbasa və mayonezli yeməklər kimi məhsullar tez xarab olur. Bu cür məhsulların xüsusilə açıq havada – çimərlikdə, yarmarkalarda, küçələrdə – düzgün şəraitdə saxlanmaması zəhərlənmə riskini artırır. Dönər, toyuq salatı, buzlu içkilər kimi qidalar xüsusilə diqqətlə seçilməlidir. Bişmiş yeməklər otaq temperaturunda iki saatdan artıq saxlanmamalı, məhsul alarkən isə qablaşdırmanın şişməsinə, qoxusuna və rənginə diqqət edilməlidir. Son istifadə tarixi keçmiş, və ya şübhəli görünən heç bir məhsul istehlak olunmamalıdır. Zəhərlənmə halı adətən qida qəbulundan 1-12 saat sonra baş verir və simptomlar arasında mədə ağrısı, ürəkbulanma, qusma, ishal, baş ağrısı, halsızlıq, başgicəllənmə, ağız quruluğu və bəzən soyuq tərin gəlməsi qeyd olunur. Bu əlamətlər müşahidə olunduqda bol maye qəbul etmək önəmlidir. Dehidratasiyanın qarşısını almaq üçün su içmək, qida qəbulunu dayandırmaq və süd məhsulları, yağlı yeməklər, şirniyyat kimi qidalardan uzaq durmaq lazımdır. Mədəni sakitləşdirən qidalara – məsələn, banan, qara çörək, düyü – az miqdarda üstünlük verilə bilər. Zəncəfil və nanə kimi bitki çayları da faydalıdır. Lakin simptomlar 24 saatdan çox davam edərsə, mütləq tibbi yardıma müraciət olunmalıdır. Zəhərlənmə və günvurma halları yay aylarında ciddi təhlükə yarada bilər və onların qarşısını almaq üçün sadə profilaktik tədbirlər son dərəcə əhəmiyyətlidir”.



***Ziya Hikmətoğlu***

# Görəsən bunun dərmanı var?..



***Ay Molla, sən Allah, vaxt elə, qulaq as, bir yol göstər bizə. Vallah səndən başqa bu dərdi kimə dedimsə, çarəsi olmadı. Ay rəhmətlik, axı səsdən başımız çatlayır. Bəlkə də həkimə getsək, hamımıza “başınız xarab olub, gedin qalan ömrünüzü istədiniz kimi yaşayın”,- deyəcək.***

Ay Molla, hərdən fikirləşirəm ki, “uzaydan” gəlib gecəynən bizə nə isə etdilər, görəsən? Elə hey o deyir-bu deyir ki, axşam göydə “tarelka” gördüm, yerdə parıltı gördüm. Vallah, şübhələnirəm bəzən. Bizə nə etdisə, onlar etdi. Yoxsa ətdən, sümükdən ibarət bizləri bu səs çoxdan o dünyaya aparmış olmalıydı.

**FELYETON**

Ay qurban olum, camaatın hamısı qışqırır, xəbərin var? Hamı ucadan danışır, qulağını tıxıb öz-özünə danışır. Vallah, elə qorxulu görünürlər ki... Bir də görürsən ki, küçədə bir nəfər öz-özünə danışa-danışa sənə tərəf gəlir. Hiss edirsən ki, əlin-ayağın buzlaşır. Gəlib yanından keçir, xeyli aralanandan sonra sənlə işi olmadığını görüb toxdayırsan.

Gənclərin universitetdən çıxma vaxtı küçədə bir hay-qışqırıq başlayır ki.... Bir-biriləri ilə zarafatlaşa-zarafatlaşa, ucadan danışa-danışa gedirlər. Hələ metroda ey, elə ucadan danışırlar ki, dönüb baxırsan, baxanda da sənə elə bir göz süzdürürlər ki, vallah, qorxursan. Deyirsən, bu yaşımda bunlar məni döyəcək, deyəsən...

Metroda-qatarda bir də eşidirsən ki, kiməsə zəng gəldi, başladı çığıra-çığıra danışmağa. Onun əvəzindən ha utan, nə olsun. O, öz işindədir. Heç vecinə də deyil ki, axı bu qədər adamın qulağı məndədir...

Ay Molla, dərd bir olar, iki olar, deyərsən, hə. Axı onlarladır, hansından danışım ki, ürəyim soyusun. A kişi, xoşbəxt adammışsan ey, dövründə maşın-filan yox idi. Minirdin uzunqulağa, düşürdün yola, başın sakit, qulağın dinc. Gəl də, nə olar, gəl, günümüzə bax. Gör, nələr çəkirik?

A kişi, bu Bakı şəhərini sən yaxşı tanıyırsan da, ta burada maşın əlindən tərpənmək mümkün deyil. İlahi, kimin əlinə beş qəpik düşübsə, verib maşına, özü də girib içinə, ta çıxmaq bilmir. Axşama kimi o küçə sənin, bu küçə mənim. Siqnallayırlar, elə bir dəlixanadır bura. Siqnalı qoyum bir kənara ey. Maşınlardan çıxan musiqi səsi qapılarımızı Xəzərdən gələn fırtınalı külək kimi açıb soxulur evlərimizə, otaqlarımıza. Deyir, dur ayağa, sən hara, istirahət hara?

Allah köməyimiz olsun, ay Molla, yaman xəstəyik. Sən Allah, vaxtın olanda bizə bir kitab aç. Gör vəziyyətimiz necə olacaq? A kişi, deyirəm sənə ki, minlərlə maşın var bu şəhərdə, deməli, minlərlə də xəstə var. Bax halımıza. Desən ki, bunların mərəzi nədir? Budur ki, hamısının başının içinə nə isə olub, ya da qulaqlarına. Maşında musiqiyə bu qədər səs verərlər?

Vallah, yazıqlar, xəstədir. Yoxsa bu səs kənardakıların başını bu qədər pozanda, gör onlara nə edər. Yəqin bunları o “uzaydan” gələnlər dəyişdirib özləri kimi dəmirə çevirdilər. Ki, bunlara səs təsir etmir. Gup-gup, axı nə qədər gup-gup?..

And olsun Allaha, Molla, gup-gup səsi beyninə təmas edir, qayıdır, mahnıların səsi qarışır bir-birinə, deyirsən bəs cəhənnəmin qır qazanında pak-pak qaynayırsan.

Elə vallah, cəhənnəmliyik hamımız. Ətəyi qaldırıb dizimizdən iki qarış, köynəyi də göbəyimizdən bir qarış yuxarıya qaldırıb qoyanda, sinəmizi açanda, Allahın verdiyi əzaları bəyənməyib yeniləyəndə, saçımızı göy qurşağı rənglərinə boyayanda, sosial şəbəkələrdə biabırçılıqla məşğul olanda, Allah da bizə bax belə mərəz endirər göydən.

Günahkar özümüzük. Amma yenə də Allah köməyimiz olsun, Hamımızın övladı var. Övlad yazıq da nə etsin, gözünü açıb bizi görür, arxamıza üç təpik də artıq vurur. Deyirik görən bu niyə belə oldu? Ta düşünmürük ki, kül başımıza, bizim mərəzimiz buna da keçdi. Hə, Molla, gör bizə nə edə bilərsən. Yəni görəsən bu qışqırmamaq üçün bir dava-dərman varmı, yazığıq, həm də çox yazıq...

***Mətanət Məmmədova***

# Hepatit: hər 30 saniyədə bir nəfər...

***"Hepatit" qaraciyərin xəstəliyidir. Törədicisi qan tərkibli çox dəyişkən bir virusdur. Daha təhlükəlisi isə odur ki, tez-tez öz formasını və genotipini dəyişdiyinə görə diaqnostikasında və müalicəsində müəyyən problemlər yaradır. Bu dəyişkən xassəsinə görə onun diaqnostik aparatlar vasitəsi ilə təyin edilməsi, dolayısı ilə müalicə dərmanları çox bahalıdır, eyni zamanda uzunmüddətlidir.***




Hepatit B və C ən zərərli növlərdir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) hesablamalarına görə, hər il dünyada 1,3 milyon insan bu virusun yaratdığı xəstəliklərdən ölür. Bu, hər 30 saniyədə bir Hepatit ölümü deməkdir. Hepatitin hər gün sürətlə yayılmasının əsas səbəbi isə cəmiyyətin bu virusdan qorunma yollarını hələ də bilməməsidir. ÜST-ə görə Hepatit B Sakit okeanın qərb regionunda (Çin, Yaponiya və Avstraliya) 97 min nəfərdə, Afrikada 65 milyon insanda rastlanıb. Cənub-Şərqi Asiya regionunda (Hindistan, Tailand və İndoneziya) 61 milyon insanda müşahidə olunur. ÜST bildirir ki, Hepatit B hər il dünyada 20 milyon insana yoluxur.

Hepatitə əlinizdəki kiçik bir yaradan, stomatoloqdan, doğum evindən, hepatitli biri ilə cinsi əlaqədən, hepatitli insanın qanına təmas etdikdə, birdəfəlik istifadə üçün nəzərdə tutulmuş tibbi alətlərin təkrar istifadəsindən, hepatitli anadan doğularaq, hepatitli insanın üzqırxan aləti, diş fırçası, dırnaq qayçısı kimi gigiyenik əşyalarına toxunaraq, hemodializ və ya akapunktur (iynəsancma ilə müalicə) prosesləri zamanı yoluxa bilərsiniz.

Hepatit B virusu AİDS-dən 100 dəfə artıq yoluxucu virusdur, müalicə ilə nəzarət altında saxlanması mümkündür, lakin bunun üçün erkən diaqnoz vacibdir. Əgər vaxtında aşkarlanmasa və müalicə edilməsə gizli inkişaf edən xəstəlikdir, bunun da nəticəsi qaraciyərin serrozu və ya xərçəngidir. Müasir texnologiya Hepatit B-nin aşkarlanması üçün bütün imkanlara sahibdir, bunun üçün bu təhlükəli virusun aşkarlanması əvvəlki illərə nisbətən daha asandır. Peşəkar həkim lazımı avadanlıq olduğu təqdirdə qan analizi ilə bunu təyin edə bilər.

Həkimlər Hepatit B virusundan qorunmağın ən güvənli yolunun bu virus əleyhinə peyvənd olduğunu deyirlər. Yoluxma baş verdikdən sonra isə qaydasında aparılan müalicə - iynə və dərman təyinatı vacibdir. Hepatit B virusunun xüsusilə hamilələrdə daha təhlükəlidir, 1998-ci ildən bəri dünyada bu virusa qarşı peyvənd də tətbiq edilir. Həkimlər deyir ki, yenidoğulmuşlara dərhal Hepatit B əleyhinə peyvənd edilir, amma xəstəxanalarda yox, evində, ara həkimlərinin evində doğan qadınların da olduğunu nəzərə alsaq, onda Hepatit B-nin yayılmasının qarşısını tam ala bilmədiyimizi görərik. Hepatit B virusu daşıyan anaların doğuşdan əvvəl müalicə edilməsi, doğulan uşağa ilk 8 saat ərzində Hepatit B peyvəndinin və dərmanının verilməsi uşağın bu təhlükəli virusdan qorunmas üçün vacibdir. Tibb elminə görə, Hepatit B peyvəndi uşaq doğulanda və 6-cı ayda 3 doza halında vurulmalıdır, yaxşı olar ki, valideynlər 1 yaşında uşağı Hepatir B testindən də keçirsinlər.

Hepatit A ən çox nəcislə çirklənmiş qida və ya içməli su istehlakı və ya əvvəlcədən bu növə yoluxmuş şəxslə birbaşa təmas nəticəsində ötürülür. Gigiyena şərtlərinin tam əməl edilmədiyi aşağı və orta gəlirli ölkələrdə Hepatit A-ya daha çox rast gəlinir. 1998-ci ildə Çinin Şanxay şəhərində çirkli suya görə 300 min insan bu xəstəliyə yoluxmuşdu. Əgər immun sistemi qüvvətli olarsa onun simptomları qısa müddətdə yox olur və demək olar ki, hər kəs sağalır. Ancaq ölümcül qaraciyər çatışmazlığına səbəb ola bilər.

Məlumat üçün qeyd edək ki, bu gün dünyada Hepatitin A, B, C, D, E tipləri geniş yayılıb. Dünyada qaraciyər xərçənginə tutulanların 78 faizi Hepatit B və ya C daşıyıcılarıdır. Hepatit virusları hər il dünyada 1 milyon insanın ölümünə səbəb olur. Dünyada hər 12 insandan birində xroniki Hepatit var və bu insanların əksəriyyəti də xəstəliyindən xəbərsizdir.



Hepatit B-yə yoluxmuş insanın əvvəlcə qaraciyər hüceyrələrində iltihabi proses başlayır, xəstədə iştahasızlıq, ürəkbulanma, qusma, zəif qızdırma, sidiyin tündləşməsi və sarılıq əmələ gəlir. Hepatit B virusuna yoluxma baş veribsə dərhal həkimə müraciət edin. İlkin 24 saat ərzində Hepatit B immunoqlobulinlərinin inyeksiyası sizi Hepatit B-nin inkişafından xilas edə bilər. Bununla yanaşı, ardıcıl olaraq üç dəfə Hepatit B peyvəndini almanız gərəkdir.

Heç bir əlamət olmasa belə Hepatit B ilə yoluxmusunuzsa, o sizin qaraciyərinizi zədələyə bilər və özünüz də bilmədən sizdən digər insanlara keçə bilər. Odur ki, əgər azacıq da yoluxma təhlükəsini mümkün hesab edirsinizsə mütləq müayinə olunun. Bununla həm özünüzü, həm də yaxınlarınızı qorumuş olarsınız.

Hepatit B əsasən doğuş zamanı anadan uşağa, çirkli iynələr və şprislər, döymə-tatuaj, pirsinq, yoluxmuş qan və cinsi əlaqə zamanı ötürülür. Hepatit C və D həmçinin yoluxmuş qan vasitəsilə, məsələn, iynələrin və şprislərin paylaşılması və ya yoluxmuş qanın köçürülməsi yolu ilə ötürülür. Yalnız Hepatit B olanlar Hepatit D-yə yoluxa bilər və bu, xroniki Hepatit B olanların 5%-də rastlanır. Hepatit E çirklənmiş su və qida qəbulu ilə ötürülür. Ən çox Cənubi və Şərqi Asiyada rast gəlinir və xüsusilə hamilə qadınlar üçün zərərli ola bilər.

ÜST-yə görə, hepatitin simptomları qızdırma, zəiflik, iştahsızlıq, ishal, ürəkbulanma, mədə ağrısı, tündləşmiş sidik və nəcis, dərinin və göz ağlarının sarılığıdır. Eyni zamanda, hepatiti olan bir çox insanlarda yalnız yüngül simptomlar da ola bilər və ya heç bir simptom hiss edilməz. ÜST-nin 2022-ci ildə dərc etdiyi məlumatlara görə, dünyada Hepatit B xəstələrinin yalnız 13%-nə və xroniki Hepatit C xəstələrinin yalnız 36%-nə diaqnoz qoyulub. Təhlükə ondan ibarətdir ki, onlar bilmədən infeksiyanı başqalarına ötürə bilərlər.

Hepatit A-nın xüsusi müalicəsi yoxdur. Lakin yoluxmuş insanların əksəriyyəti tez sağalır və immunitet yaranır. Xroniki Hepatit B və C antiviral dərmanlarla müalicə olunur ki, bu da serroz və qaraciyər xərçənginin inkişaf riskini azaldır. Hepatit A və B-nin qarşısını alan dərmanlar var. Körpələr dünyaya gələn kimi onlara vurulan Hepatit B peyvəndi xəstəliyin anadan uşağa keçməsinin qarşısını alır və Hepatit D-dən də qoruya bilir. Hepatit C-yə qarşı peyvənd hazırlanmayıb və Hepatit E peyvəndləri də hazırda geniş yayılmayıb.

ÜST 2030-cu ilə qədər Hepatit B və C-yə yoluxanların sayını 90% və bu xəstəliklərdən ölənlərin sayını 65% azaltmaq istədiyini bildirir. Lakin yenə eyni qurumun statistik məlumatlarına baxanda görünür ki, hepatit viruslarından ölənlərin sayı artır. ÜST bildirir ki, yüz milyonlarla insan hələ də hepatit testindən keçmək üçün mübarizə aparır və dünya ölkələrinin yalnız 60%-i pulsuz və ya sığortalı hepatit testini təmin edir. Afrika ölkələrinin isə yalnız üçdəbirində bu imkan var.

***Lalə Mehralı***

# "YAŞAT" Fondu və "Nar" şəhid övladları üçün unudulmaz yay düşərgəsi təşkil etdi




***Sərfəli xidmətləri və sosial əhəmiyyətli layihələri ilə seçilən mobil operator "Nar" "YAŞAT" Fondunun 12-15 yaş arası şəhid övladları üçün təşkil etdiyi əyləncəli və öyrədici yay düşərgəsinə dəstək olub. Qəhrəman valideynlərin övladları ilə "Nar"ın baş icraçı direktoru Qunnar Panke də görüşüb, maraqlı suallar ətrafında müzakirə aparıb.***

Sonda Qunnar Panke yeniyetmələrə öz tövsiyəsini verib: ""Nar" ölkəyə rabitə xidməti göstərməklə yanaşı müxtəlif sosial layihələrlə cəmiyyətin inkişafına töhfə verməyi də qarşısına məqsəd qoyub. Bu məqsədlərə yetmək üçün gənclərimizdən savadla yanaşı çalışqanlıq və cəsarət tələb olunur. Bu mənada, qəhrəman valideynlərinizin rəşadəti təkcə qürur mənbəyi deyil, həm də sizin gələcəyiniz üçün tükənməz güc qaynağıdır. Siz hər zaman, hər yerdə onlar kimi cəsarətli, qorxmaz və məqsədyönlü davranmaqla böyük uğurlara nail olacaqsınız."

Artıq dördüncü dəfə təşkil edilən yay düşərgəsi bu dəfə Lənkəran rayonun füsunkar təbiətindəkeçirildi. XX günlük düşərgədə 75 nəfər şəhid övladı üçün öyrədici təlimlər, teatrlar, tanınmış şəxslər və qurum rəhbərləri ilə görüşlər, ekskursiyalar və əyləncə saatları təşkil edilib. Düşərgənin dəstəkçisi olaraq, "Nar"dan bütün iştirakçılara dəyərli hədiyyələr təqdim edilib. Mobil operator "Nar" da özünün KSM strategiyası çərçivəsində milli irsin qorunması istiqamətində həyata keçirilən layihələrə davamlı dəstək olur.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Körpə bələmək – qədim adət və müasir tələblər





*Yenidoğulmuş körpəni bələmək (qucaqlama üsulu ilə bədənini sıx şəkildə sardaq bağlamaq) uzun illər boyunca bir çox mədəniyyətdə tətbiq edilən, ancaq son zamanlar həm də elmi baxımdan qiymətləndirilən bir praktikadır. Bu vərdişin faydalı olub-olmadığı ilə bağlı suallar, valideynlər və xüsusilə birinci dəfə ana-ata olanlar üçün olduqca maraqlıdır. SİA mövzu ilə bağlı araşdırma aparıb.*

### Bələməyin mümkün faydaları

Uşağın özünü ana bətnindəki kimi təhlükəsiz hiss etməsi: Körpələr doğulduqdan sonra bətn xaricindəki dünya ilə tanış olurlar və bu keçid onlar üçün narahatlıq doğura bilər. Sıx şəkildə bələmək körpəyə bətnin sıx və isti mühitini xatırladır, bu da onu sakitləşdirə və adaptasiyanı asanlaşdıra bilər.

Refleks hərəkətlərin azaldılması: Körpələrdə "Moro refleksi" (qorxu refleksi) adlanan bir refleks var ki, bu zaman qəfil səs, işıq və ya toxunuş nəticəsində qollarını açıb-aşağı salırlar. Bu onların oyanmasına və ağlamasına səbəb ola bilər. Bələmək bu refleksi yumşaldaraq daha rahat və uzun yuxuya səbəb ola bilər.

Yuxu rejiminin yaxşılaşması: Tədqiqatlar göstərir ki, düzgün şəkildə bələnmiş körpələrin daha uzun və dərin yuxuya getmə ehtimalı artır. Bu həm körpə, həm də valideynlər üçün vacibdir.

Qol və ayaqların hərəkətini məhdudlaşdıraraq sakitlik yaratmaq: Bələmə bədən hərəkətlərini nəzarətdə saxlayaraq körpənin əlləri ilə özünü oyatmamasına kömək edir.

### Bələmənin potensial riskləri

Bələmənin bəzi hallarda təhlükə yaradacağı da mümkündür, xüsusilə yanlış üsullarla və uzun müddət tətbiq edildikdə:

Südəmər sindromu (SIDS – qəfil körpə ölümü sindromu): Bəzi tədqiqatlar göstərir ki, bələnmiş körpələrin üzüstü yatırılarsa, bu sindromun riski artır. Buna görə də bələnmiş körpələr mütləq arxası üstə yatırılmalıdır.

Kalça displaziyası riski: Körpənin ayaqları düz və sıx şəkildə bələnərsə, bu, ayaq oynağının düzgün inkişafına mane ola və "ayaq displaziyası"na səbəb ola bilər. Bu problemi önləmək üçün ayaqların "kəpənək duruşu" kimi sərbəst şəkildə bükülü qalması vacibdir.

Hərəkət azlığı səbəbilə inkişaf ləngiməsi:

Əgər körpə daim bələnmiş vəziyyətdə qalarsa, onun sərbəst hərəkət etmə, ətrafını hiss etmə və motor bacarıqlarını inkişaf etdirmə imkanları məhdudlaşa bilər.

### Bələmək olar, lakin diqqətlə və doğru üsulla

Bələmə düzgün tətbiq olunduqda qısa müddətli rahatlıq və yuxu rejiminin tənzimlənməsinə müsbət təsir edə bilər. Lakin bu praktika aşağıdakı prinsiplər çərçivəsində edilməlidir:

- Körpənin üzü açıq və nəfəsi sərbəst olmalıdır.
- Körpə yalnız arxası üstə yatırılmalıdır.
- Ayaqlar sərbəst hərəkət edə bilməlidir, çox sıx bələmək olmaz.
- Bələmə yalnız ilk 2–3 ay ərzində tətbiq olunmalı, uşaq çevrilməyə başladıqda dayandırılmalıdır.
- Gün ərzində uşaq müəyyən saatlarda sərbəst şəkildə hərəkət etməli, bədən təması, dəridən-dəriyə kontakt və oyunla stimullaşdırılmalıdır.

Əgər valideynlər bələmək mövzusunda tərəddüd edirsə, pediatr və ya neonatoloq ilə məsləhətləşmək mütləqdir. Körpənin individual ehtiyaclarına uyğun qərar verilməsi ən sağlam yanaşmadır. Körpəni bələmək üçün ən uyğun zaman adətən yatmazdan əvvəl və ya yuxu zamanı hesab olunur. Bu praktika yuxuya keçidi asanlaşdırmaq və yuxu müddətində körpənin öz refleks hərəkətləri ilə oyanmasının qarşısını almaq üçün istifadə edilir.



### Yatarkən bələmək nə üçün faydalıdır?

Sakitləşdirici təsir göstərir: Bələmə körpəyə ana bətnindəki sıxlıq hissini xatırladır. Bu da onu sakitləşdirir və özünü təhlükəsiz hiss etməsinə kömək edir.

Moro refleksinin qarşısını alır: Körpələrdəki qorxu refleksi (qollarını qəfil açmaq və ağlamaq) uyanmaya səbəb ola bilər. Bələmə bu refleksi yumşaldaraq dərin yuxunu qoruyur.

Yuxu rejimini tənzimləyir: Bəzi tədqiqatlara görə, düzgün bələnmiş körpələr daha uzun və keyfiyyətli yuxuya gedə bilirlər.

### Körpəni ayıqkən bələmək nə zaman uyğundur?

Ayıqkən bələmə yalnız çox narahat, ağlayan və sakitləşə bilməyən körpələr üçün müvəqqəti bir üsul kimi istifadə edilə bilər. Lakin bu zaman da bələmə müddəti qısa olmalı, körpə daim bələnmiş vəziyyətdə saxlanmamalıdır.

Ayıqkən körpənin əlləri, ayaqları, toxunma və görmə duyuları sərbəst işləməlidir ki, motor bacarıqları inkişaf etsin.

Ən uyğun zaman – körpə yatarkən və ya yatmazdan əvvəl bələməkdir. Ayıqkən bələmək isə yalnız körpəni müvəqqəti sakitləşdirmək üçün istifadə olunmalıdır və uzun müddətli olmamalıdır. Körpə hər gün müəyyən saatlarda bələnmədən sərbəst şəkildə hərəkət etməlidir – bu, onun fiziki və nevroloji inkişafı üçün vacibdir.

Dünyada körpə bələmək ənənəsi: Tarixi, mədəni fərqlər və müasir baxış

Körpələrin bələnməsi – yəni onları xüsusi şəkildə parça ilə sıx və düz şəkildə bükmək – min illərdir dünyanın müxtəlif bölgələrində tətbiq olunan qədim bir uşaq baxımı təcrübəsidir. Bu ənənə həm fiziki rahatlıq, həm də psixoloji təhlükəsizlik baxımından körpələr üçün faydalı hesab edilib. Lakin müxtəlif mədəniyyətlərdə bu praktikaya fərqli yanaşmalar olmuş və zaman keçdikcə tibbi baxımdan yenidən qiymətləndirilib.




### Tarixi baxış

Körpəni bələmək qədim Misir, Yunanıstan, Roma və Çin sivilizasiyalarında geniş yayılmışdı. Tarixi mənbələrdə bələnmiş körpələrin təsvirləri, o cümlədən qədim heykəllər və rəsmlər var. Bu ənənənin kökü əsasən aşağıdakı səbəblərə dayanır:

- Uşağın bədənini düz saxlamaq, əyilmələrin və əyriliklərin qarşısını almaq.
- Ananın işini asanlaşdırmaq, yəni körpənin qollarının və ayaqlarının idarə olunmayan hərəkətlərini məhdudlaşdırmaq.
- Körpəyə bətn içindəki mühiti xatırlatmaq, bu da uşağa psixoloji rahatlıq verir.

### Mədəni fərqlər

Orta Asiya (Qazaxıstan, Özbəkistan və s.): Körpələr möhkəm bələnir və bəzi hallarda xüsusi beşiklərə (besik) qoyularaq bağlanır. Bu, uşaqda düzgün fiziki inkişaf və sakit yuxu məqsədi daşıyır.

Azərbaycan və Qafqaz: Ənənəvi olaraq körpə bələmək geniş yayılmışdı. Ana nənələr bu işi xüsusi ustalıqla görərdi. İndiki dövrdə daha çox "yumşaq" bələmə üsulları üstünlük qazanır.

Yaponiyada: Əvvəllər körpələr sıx bələnirdi, amma müasir dövrdə daha çox sərbəst hərəkətə icazə verilir. Yenə də müəyyən hallarda rahat yuxu üçün bələmə tətbiq edilir.

Afrikanın bəzi bölgələri; Körpə ananın belində parça ilə sıx bağlanır. Bu həm bələmə formasıdır, həm də uşaqla fiziki yaxınlığı təmin edir.

Amerika və Avropa: Müasir dövrdə "swaddling" (yumşaq bələmə) bəzən istifadə olunur. Pediatrların tövsiyələrinə əsasən yalnız ilk həftələrdə və yuxu zamanı tətbiq olunur.

Dünyada körpə bələmək ənənəsi zamanla həm mədəniyyətlərə uyğunlaşmış, həm də tibbi biliklərin artması ilə daha təhlükəsiz formalar almışdır. Ən əsası, bələmə üsulu uşağın rahatlığına, sağlamlığına və valideynin ona göstərdiyi diqqətə uyğun tənzimlənməlidir. Müasir dövrdə bu qədim ənənəni yaşatmaq üçün elmi yanaşmalar və təhlükəsizlik tədbirləri vacibdir.

***Ayşən Vəli***

ARAŞDIRMA





# Tailand-Kamboca qarşıdurması dağıdıcı müharibə riski yaradır

*Dünyada müharibələr, münaqişələr bitmək bilmir. Əksinə, dövlətlərarası qığılcımı xatırladan qarşıdurmalar yeni müharibə ocaqlarının yaranmasına gətirib çıxarır. Bu dəfə yeni müharibə riskinin Tailandla Kamboca arasında baş verə biləcəyi ehtimal olunur. Daha doğrusu, uzun müddətdir ki, hər iki dövlət arasında sərhəd mübahisəsi səbəbində ara - sıra toqquşmalar baş verir.*

Ötən həftə Tailand-Kamboca arasında son on ilin ən gərgin qarşıdurması yaşandı. Tailanda məxsus 10-a yaxın F-16 Kambocanın hərbi qərargahını və sərhəd yaxınlığında yerləşən kənd və qəsəbələri hədəfə aldı. Nəticədə onlarla hərbçi və mülki əhali öldürülüb və yaralanıb. Hər iki ölkə təhlükəsizlik məqsədilə sərhəd boyu mülki insanları təxliyə etməyə başlayıb. Bu arada, Kamboca münaqişənin böyüməsi riskini vurğulayaraq, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının təcili iclasını tələb edib. Tailand Müdafiə Nazirliyi 19 nəfərin, Kamboca tərəfi isə 13 nəfərin, o cümlədən 5 hərbçi və 8 mülki vətəndaşın həlak olduğunu bildirib. Sərhədə yaxın Kantralak şəhərinin sakini deyib: "Şəhər demək olar ki, boşalıb. İnsanlar gedib. Mənim otelim hələ də fəaliyyət göstərir, çünki insanlar müvəqqəti sığınacaq axtarır". Hər iki tərəfdən yüz mindən çox insan evlərini tərk etmək məcburiyyətində qalıb.



"Reuters" agentliyinin verdiyi məlumata görə, şənbə günü səhər saatlarında döyüşlər Tailandın Tret bölgəsində də baş verib. Bu bölgə əvvəlki toqquşma nöqtəsindən təxminən 100 kilometr uzaqlıqda yerləşir. Bu, o deməkdir ki, münaqişə artıq yeni cəbhələrdə də genişlənməkdədir. Hadisələrin qızışmasına səbəb kimi may ayının sonunda baş vermiş bir insident göstərilir, bu insident zamanı kambocyalı əsgər həlak olub. Həmin vaxtdan etibarən hər iki ölkə sərhədə əlavə qüvvələr cəlb edib. Eyni vaxtda Tailandda daxili siyasi böhran da yaşanır - koalisiya hökuməti parçalanmaq təhlükəsi ilə üz-üzədir.

### Münaqişənin əsas səbəbi Ta Muan Thom məbədidir

BMT Təhlükəsizlik Şurasının fövqəladə iclasında çıxış edən Tailand nümayəndəsi bildirib ki, iki əsgər minalardan xəsarət alıb və Kambocanı hücumda ittiham edib. O, beynəlxalq ictimaiyyəti sülhə çağırmağa səsləyib. Kamboca isə öz növbəsində bildirib ki, Tailand "qəsdən, səbəbsiz və qanunsuz hücuma" başlayıb. Onlar BMT-ni və dünya birliyini Tailandın hərəkətlərini sərt şəkildə pisləməyə çağırıb. Pnompenə görə, Tailand sərhədə daha çox hərbi texnika toplamaqla münaqişəni daha da dərinləşdirir və suverenliyi pozur.

Münaqişənin baş verməsinin əsas səbəbi Tailandın Surin əyalətindəki Ta Muan Thom məbədinə nəzarətdir. Lakin iddialara görə, başlıca maraq hər iki tərəfin sərhəd ticarətinə, qaçaqmalçılığa və narkotik ticarətinə nəzarət uğrunda mübarizədir. Bu fakt qeyd olunmasa da reallıqdır. Tərəflər isə mübahisənin məbədə nəzarət uğrunda yarandığını qeyd edirlər. Məbədin yaxınlığında Tailandın hərbi bazası yerləşsə də kambocalılar bu məbədi, eləcə də ətraf əraziləri özlərininki hesab edir. Kambocanın "Vodkhmer" nəşri iddia edir ki, iyulun 22-də məbəddə hər iki tərəfdən mülki şəxslərlə hərbçilər arasında baş verən şifahi mübahisə döyüşə çevrilib və iyulun 24-də Preah Vihear əyalətində sərhəddə patrul xidməti aparan üç Tayland əsgəri minaya düşərək həyatlarını itiriblər. Kamboca tərəfi bəyan edib ki, Tailand əsgərləri 2000-ci il Anlaşma Memorandumunu pozaraq Kamboca ərazisini patrul xidməti həyata keçiriblər.

### Taylandla Kamboca arasındakı qarşıdurma toxumunu səpən yenə də Fransadır

Araşdırmalara əsaslanaraq vurğulamaq lazımdır ki, Tailand və Kamboca arasındakı 817 kilometrlik sərhəd bölgənin fransızların müstəmləkəsi olduğu 19-cu əsrdən bəri iki ölkə arasında mübahisə mənbəyi olub. Kamboca 1863-cü ildə Fransa tərəfindən işğal olunub. 1904-cü ildə Fransa və Tailand (o zaman Siam kimi tanınırdı) arasında bağlanan müqavilə Tailand-Kamboca sərhədlərini yenidən müəyyənləşdirdi. Müqavilə nəticəsində Tailandın daxilində yerləşən 11-ci əsrə aid Preah Vihear məbədi Kamboca ərazisinə birləşdirildi. Lakin Tailand sərhədin fransızlarla razılaşdırılmış xətlərdən kənara çıxdığını iddia edərək ona etiraz edib. Beləliklə, iki ölkəni bir-birindən ayıran 817 kilometrlik sərhəd onların arasında mübahisəyə səbəb olub.

Tailand dövləti Kambocaya məxsus hərbi obyekti məhv etmək üçün F-16 döyüş təyyarələrindən istifadə edib. Bununla yanaşı, Kamboca ilə bütün sərhəd keçidlərini bağlayıb. Kamboca ordusu cavab zərbələri həyata keçirib və nəticədə 14 Tayland vətəndaşı öldürülüb. Hər iki ölkənin səfirləri geri çağırılıb. Kamboca hakimiyyəti vətəndaşları panikaya düşməməyə, mal ehtiyatı saxlamamağa, satıcıları isə malların qiymətini qaldırmamağa çağırıb. Tailand və Kamboca arasında uzun müddətdir davam edən ərazi mübahisəsi zəminində açıq hərbi əməliyyatlar başlayandan sonra Kral Tailand Ordusunun iki ölkə sərhədi yaxınlığında Kamboca mövqelərinə hücum etmək üçün T-84 əsas döyüş tanklarından istifadə etdiyi təsdiqlənib. Phra Vihan bazası ərazisində əməliyyatlar təsdiqlənib, Tailand mənbələri isə tankların "itirilmiş əraziləri geri almaq" üçün istifadə edildiyini iddia edir.



Kamboca məbədlərin mülkiyyətinə etiraz edərək Beynəlxalq Ədalət Məhkəməsinə (ICC) müraciət etmək qərarına gəlib. Nəzərə almaq lazımdır ki, 1962-ci ildə Beynəlxalq Ədalət Məhkəməsi (ICJ) məbədin Kambocaya aid olduğuna dair qərar çıxarsa da, məbədi əhatə edən torpaq və sərhədlə bağlı mübahisələr bu günə qədər davam edir. Məbədin 2008-ci ildə YUNESKO-nun Ümumdünya İrs siyahısına salınması Tailandda böyük etirazlara və iki ölkə arasında qarşıdurmalara səbəb olmuşdu. Beynəlxalq Ədalət Məhkəməsi 2013-cü ildə qərarını yekunlaşdıraraq bir daha Preah Vihear məbədinin Kambocaya aid olduğuna qərar verib. Tailand BCM-nin yuridiksiyasını rədd edir. Son zamanlar BMT-nin əsas beynəlxalq qurumlarının beynəlxalq mübahisələrə son qoymaq potensialı yoxdur. Ekspertlər tamhüquqlu müharibə gözləmirlər, lakin bunu da istisna etmirlər, çünki Tailandda daxili siyasi vəziyyət ordu ilə hökumət arasında fikir ayrılığı ilə xarakterizə olunur və Kamboca həlledici hərəkətlərə qadir olan monolit ölkədir.

Hər iki ölkənin siyasətçiləri sərt bəyanatlar mübadiləsini davam etdiriblər. Sərhəd məsələsi hər iki ölkənin daxili siyasətində əsas müzakirə mövzusuna çevrilib. Hadisələrdən sonra Tailandın baş naziri vəzifəsindən uzaqlaşdırılıb. Kambocanın baş naziri Hun Manet Tailandla uzun müddətdir davam edən sərhəd mübahisələrini həll etmək üçün Beynəlxalq Ədalət Məhkəməsinə (ICJ) müraciət edib. Tailandın baş naziri Paetongtarn Shinawatra da Kambocanın keçmiş baş naziri və Senatın sədri Hun Sen ilə telefon danışığı mətbuata sızdıqdan sonra vəzifəsindən uzaqlaşdırılıb.

### Donald Dramp Tailandla Kambocanı hədələdi

Bu arada müsbət hal kimi dəyərləndirilən hadisələr yaşanır. O mənada ki, bəlkə də son on ildə ilk dəfə dünyanın bəzi aparıcı ölkələri, o cümlədən ABŞ prezidenti Donald Dramp Tailandla Kamboca arasında münaqişənin daha geniş əraziləri əhatə edilməsinin qarşısının alınması üçün əsaslı addımlar atıb. ABŞ prezidenti Donald Tramp hər iki tərəfə ültimativ çağırışla müraciət edib. O iki ölkəni atəşi dərhal dayandırmasalar, onlara sanksiyaların tətbiq olunacağı ilə hədələyib. Kamboca ABŞ prezidentinin "Tailand razılaşarsa" hərbi əməliyyatları dayandırmaq təklifini qəbul edəcəyini bəyan edib. Eyni zamanda, Tailandın baş naziri vəzifəsini icra edən Phumtham Vechayachai prezident Trampdan Phnom Penh-ə Tailandın yekun sülh həllini təmin etmək üçün mümkün qədər tez ikitərəfli dialoqa başlamaq istədiyini çatdırmağı xahiş edib.

BMT Təhlükəsizlik Şurasının çağırışından və ABŞ prezidenti D.Tampın hədəsindən sonra ehtimal ki, Tailand və Kamboca müharibəni dayandırmağa məcbur olacaqlar. Çünki böyük güclərin qarşısında onlar çox kiçikdirlər. Dirəniş göstərmək, müharibə əhavali-ruhiyyəsi ilə çıxış etmək hər iki ölkənin hakimiyyətlərinə zərbə ola bilər. Ən azı Tailand ciddi problemlərlə üzləşə bilər. Çünki Tailandda kaolisiya ittifaqı çox kövrəkdir, digər tərəfdən hakimiyyətlə ordu arasında soyuq münasibətlər hökm sürür. İstənilən vaxt bu zəif telləri qırmaq və hakimiyyətdə olanları tarixin arxivinə göndərmək mümkündür. Eynilə də Kambocada hakimiyyətlə xalq arasında qarşıdurma yaşanır. Vaxtaşırı olaraq xalq hakimiyyətin apardığı siyasətə etiraz əlaməti olaraq küçələrə çıxıb etiraz aksiyaları keçirir. Digər tərəfdən isə Kambocada Qərbin təsiri yüksəkdir. Ölkənin enerji və iqtisadi sferasına Avropanın şirkətləri nəzarət edirlər. Bütün bu və digər amillər Tailandla Kamboca hakimiyyətini kənar qüvvələrin istənilən göstərişini sözsüz yerinə yetirməyə məcbur edir. Ona görə də, yaxın saatlarda tərəflər arasında atəşkəs haqqında razılaşmanın əldə ediləcəyi şübhəsizdir. Daha doğrusu, artıq hər iki ölkənin baş nazirləri ABŞ prezidenti D.Trampın atəşkəsə nail olunması hədəsinə müsbət rəy veriblər.

**İLHAM ƏLİYEV**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb.*

# Yox olan varlıq, var olan yoxluq: Yaradılışın sirri harada gizlənir



**(XXXIII YAZI)**

Seriyamızın bundan əvvəlki hissələrində insanın necə yaranması haqda maraqlı faktları təqdim etmişik. Ondan əvvəlki hissələrdə isə, bitkilərin, heyvanların, ümumiyyətlə həyatın necə yarandığı haqda elmi və dini dəlilləri vermişdik. Bu yazıda isə, həyatın mənbəyi haqda cəfəngiyyatın (təkamül nəzəriyyəsi) elm tərəfindən necə təkzib edildiyinə toxunacağıq.

### Həyatın mənşəyi haqqında elm nə deyir?- MARAQLI FAKTLAR- 2

Darvinistlər bu problemə həll yolu tapmaq üçün 1930-cu illərin sonlarında "Müasir Sintetik Nəzəriyyə"ni və ya daha çox neo-darvinizm kimi tanınan nəzəriyyəni irəli sürdülər. Neo-darvinizm təbii seçimə "faydalı dəyişikliyin səbəbləri" kimi mutasiyaları - orqanizmlərin genlərindəki radiasiya və ya kopyalama xətaları kimi xarici təsirlər nəticəsində yaranan qüsurları əlavə etdi.

Neo-darvinizm bu gün də təkamüldə təsirini saxlayan modeldir. Nəzəriyyə Yer üzündə milyonlarla canlı növünün qulaq, göz, ağciyər və qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarla birlikdə "mutasiyalar" və ya genetik qüsurlara əsaslanan bir proseslə meydana gəldiyini iddia edir. Ancaq nəzəriyyəni alt-üst edən açıq bir elmi həqiqət var: Mutasiyalar canlıları təkmilləşdirmir; əksinə həmişə onlara zərər verirlər.

Bunun səbəbi sadədir: DNT çox mürəkkəb bir quruluşa malikdir. Bu molekula hər hansı təsadüfi təsir yalnız zərər verə bilər. Genetik alim B.G.Ranganatan bunu belə izah edir:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidir. Onlar çox nadir hallarda baş verir və ən yaxşı halda təsirsizdirlər. Bu 3 xüsusiyyət mutasiyaların təkamül irəliləyişinə səbəb ola bilməyəcəyini göstərir. Artıq yüksək ixtisaslaşmış orqanizmdə təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olacaq. Qol saatında təsadüfi dəyişiklik qol saatını yaxşılaşdırmayacaq. Çox güman ki, ona zərər verəcək və ya ən yaxşı halda təsirsiz olacaq. Zəlzələ şəhəri abadlaşdırmayacaq; onu məhv edəcək". (B.G.Ranganathan, Origins?, Pensilvaniya: The Banner of Truth Trust, 1988)

Həqiqətən də, heç bir faydalı mutasiya, yəni genetik məlumatı gücləndirən heç bir nümunə müşahidə edilməmişdir. Bütün mutasiyaların zərərli olduğu sübut edilmişdir. Təkamül nəzəriyyəsinin "təkamül mexanizmləri" kimi göstərdiyi mutasiyaların əslində canlıları məhv edən və şikəst edən genetik hadisələr olduğu aydın oldu. (Mutasiyanın insanlarda ən çox görülən təsiri xərçəngdir.) Təbii ki, dağıdıcı mexanizm "təkamül mexanizmi" ola bilməz. Təbii seleksiya, Darvinin özünün də etiraf etdiyi kimi, "özlüyündə heç nə edə bilməz". Bu fakt təbiətdə "təkamül mexanizminin" olmadığını bizə göstərir. Təkamül mexanizmi olmadığı üçün təkamül deyilən xəyali proses baş vermiş ola bilməz.

Fosil tapıntıları təkamül nəzəriyyəsinin iddia etdiyi ssenarinin əsla baş vermədiyinin ən açıq göstəricisidir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birindən törəmişdir. İddia olunurdu ki, daha əvvəl mövcud olan bir növ tədricən digərinə çevrilib və bütün növlər bu şəkildə meydana çıxıb. Nəzəriyyəyə görə, bu çevrilmə yüz milyonlarla illik uzun bir dövrü əhatə edib və tədricən inkişaf edib.

Bu halda, iddia edilən uzun keçid dövründə saysız-hesabsız "ara növlər" əmələ gəlməli və mövcud olmalı idi. Lakin elmi fakt budur-Təbiətdə ara formaların izi yoxdur!

Məsələn, keçmişdə yarı balıq və yarı sürünən varlıqlar mövcud olmalı idi ki, onlar hələ balıq xüsusiyyətlərinə sahib olmaqla yanaşı, bəzi sürünən xüsusiyyətləri də qazanmışlar. Yaxud sürünənlər və quşlar ortaya çıxmış olmalıdırlar ki, sürünən xüsusiyyətlərə malik olmaqla yanaşı, bəzi quş xüsusiyyətləri də qazanmışlar. Bunlar bir keçid prosesində olduqları üçün deformasiyaya uğramış, natamam və qüsurlu canlılar olmalı idilər. Təkamülçülər keçmişdə var olduqlarına inandıqları bu nəzəri canlılarıı "ara keçid formaları" adlandırırlar.

Əgər bu cür canlılar həqiqətən keçmişdə olubsa, onların sayı və növləri milyonlarla, hətta milyardlarla olmalı idi. Və bu dəhşətli canlıların qalıqları mütləq fosil qeydlərində tapılmalıdır. Darvin bunu "Növlərin Mənşəyi" kitabında belə izah etmişdir:

"Nəzəriyyəm doğrudursa, növləri birləşdirən saysız-hesabsız ara-keçid formaları mövcud olmalı idi... Onların varlığına dəlil isə ancaq fosil qalıqları arasında tapıla bilər". (Charles Darwin, The Origin of Species: A Faxsimile of the First Edition, Harvard University Press, 1964, s. 179)

Ancaq 19-cu əsrin ortalarından etibarən bütün dünyada aparılan qızğın fosillər axtarışlarına baxmayaraq, bu ara keçid formaları tapılmadı. Qazıntılar və araşdırmalarda əldə edilən bütün tapıntılar, təkamülçülərin gözləntilərinin əksinə olaraq, canlıların yer üzündə birdənbirə, tam inkişaf etmiş və qüsursuz şəkildə meydana gəldiyini göstərmişdir. Məşhur İngilis paleontoloqu (fosil alimi) Derek W. Ager təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: Fosil qeydlərini istər növ, istərsə də sinif səviyyəsində təfərrüatlı şəkildə araşdırdığımız zaman davamlı olaraq eyni həqiqətlə qarşılaşırıq: Yer üzündə mərhələli təkamül yolu ilə inkişaf edən qrupları deyil, birdənbirə əmələ gələn qrupları görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133)

Yəni, fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan birdən-birə tam formalaşmış şəkildə ortaya çıxır. Bu, Darvinin proqnozlarının tam əksidir. Üstəlik, bu canlı növlərinin yaradıldığına dair çox güclü dəlildir. Çünki təkamül etdiyi heç bir əcdadı olmayan bir canlı növünün birdənbirə və qüsursuz şəkildə ortaya çıxmasının yeganə izahı növün yaradıldığıdır. Bu həqiqəti məşhur təkamülçü bioloq Duqlas Futuyma da qəbul edir:

"Yaradılış və təkamül canlıların mənşəyinin yalnız 2 mümkün izahıdır. Canlılar ya yer üzündə tamamilə mükəmməl və tam bir formada ortaya çıxıblar, ya da belə olmayıb. Əgər belə deyilsə, onlar bir dəyişiklik prosesi ilə əvvəlcədən mövcud olan bəzi növlərdən təkamül yolu ilə inkişaf etməlidirlər. Amma əgər onlar tam və mükəmməl bir formada ortaya çıxıblarsa, o zaman sonsuz güclü bir ağıl tərəfindən yaradılmalıdırlar". (Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983, s. 197).

Fosillər isə canlıların yer üzündə tamamilə mükəmməl və qüsursuz bir şəkildə meydana gəldiyini göstərir. Başqa sözlə, "Növlərin mənşəyi" Darvinin inancının əksinə olaraq təkamül deyil, yaradılışdır.

Təkamül nəzəriyyəsini müdafiə edənlərin ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Darvinin bu mövzuda iddiası müasir insanların meymunabənzər canlılardan törədiyini fərz edir. 4-5 milyon il əvvəl başladığı güman edilən bu proses zamanı müasir insanlarla onların əcdadları arasında bəzi "ara formalar"ın mövcud olduğu iddia edilir. Əslində tamamilə xəyali olan bu ssenaridə dörd əsas "kateqoriya" sadalanır:

**1- Avstralopitek**
**2- Homo habilis**
**3- Homo erectus**
**4- Homo sapiens**

Təkamülçülər insanların ilk meymunabənzər əcdadlarını "cənub meymunu" mənasını verən "Australopithecus" adlandırırlar. Bu canlılar əslində nəsli kəsilmiş meymun növündən başqa bir şey deyil. İngiltərə və ABŞ-dan olan dünya şöhrətli iki anatomist Lord Solly Zuckerman və Prof. Charles Oxnard tərəfindən Australopithecus nümunələri üzərində aparılan geniş araşdırmalar bu canlıların yalnız nəsli kəsilmiş bir meymun növünə aid olduğunu və insanlara heç bir bənzəmədiyini göstərmişdir. (Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, s. 75-94; Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, cild 258, səh. 389)

Təkamülçülər insan təkamülünün növbəti mərhələsini də insan mənasını verən "homo" adlandırırlar. İddiaya görə, Homo seriyasındakı canlılar avstralopiteklərdən daha inkişaf etmişlər. Təkamülçülər bu müxtəlif canlıların fosillərini bir-birinin ardınca düzərək xəyali bir təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki əslində bu müxtəlif siniflər arasında təkamül əlaqəsi heç vaxt sübut olunmamışdır. 20-ci əsrdə təkamül nəzəriyyəsinin ən görkəmli müdafiəçilərindən biri olan Ernst Mayr bunu etiraf edərək, "Homo sapiensə aparan zəncir əslində yoxdur" demişdir. (J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr," Scientific American, dekabr 1992).

Təkamülçülər "Australopithecus > Homo habilis > Homo erectus > Homo sapiens" ardıcıllığını yazdıqda, bu növlərin hər birinin bir sonrakı növünün əcdadı olduğu təəssüratı yaradır. Ancaq paleoantropoloqların son tapıntıları Australopithecus, Homo habilis və Homo erectusun dünyanın müxtəlif bölgələrində eyni vaxtda yaşadığını göstərir. (Alan Walker, Science, cild 207, 1980, s. 1103; A. J. Kelso, Physical Anthropology, 1st ed., New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, Cambridge University Press, cild 7, Cambridge University, s. 7, s. 12).

Bundan əlavə, Homo erectus təsnifatına aid olan bəzi insanlar, Homo sapiens neanderthalensis və Homo sapiens sapiens (müasir insanlar) ilə birlikdə mövcud olaraq çox müasir dövrlərə qədər yaşamışlar. ("Time", noyabr 1996)

Bu, təbii ki, bu təbəqələrin bir-birinin əcdadı olması iddiasının əsassızlığını açıq şəkildə nümayiş etdirir. Harvard Universitetinin paleontoloqu Stephen Jay Gould özü də təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü çıxılmazlığı belə izah edir:

"Bir-birinə paralel yaşayan 3 fərqli hominid xətti var idisə, o zaman nəsil ağacımıza nə oldu? Aydındır ki, heç biri digərinin nəslindən ola bilməzdi. Bundan əlavə, bir-birləri ilə müqayisədə təkamül inkişaf tendensiyası göstərmirlər". (S. J. Gould, Natural History, cild 85, 1976, səh. 30)

Qısacası, mediada və dərsliklərdə görünən xəyali "yarımeymun, yarı insan" canlıların təsvirləri ilə təbliğ edilən insanın təkamül ssenarisi heç bir elmi əsası olmayan bir nağıldır.

İngiltərənin ən tanınmış və nüfuzlu alimlərindən biri olan Lord Solli Zukerman bu mövzunu uzun illər, xüsusən də avstralopitek fosilləri üzərində 15 illik tədqiqatdan sonra araşdırmışdır. O, təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insanlara qədər uzanan əsl nəsil ağacı olmadığı qənaətinə gəlib.

Zukerman maraqlı "elmi miqyas" da təqdim edib. Elmi hesab etdiyi bilik sahələrindən qeyri-elmi hesab etdiyi sahələrə qədər bir spektr qurmuşdur. Zukermanın çərçivəsinə görə, ən "elmi"- yəni konkret məlumatlara əsaslananlar kimya və fizikadır. Spektrdə sonrakı yerdə biologiya elmləri, ardınca isə sosial elmlər gəlir. Spektrin ən sonunda, Zukermana görə, ən "elmi olmayan"lar, telepatiya və 6-cı hiss kimi "ekstrasensor qavrayış" anlayışları və nəhayət, "insan təkamülü"dür! Zukerman spektrin bu sonunu belə izah edir:

"Obyektiv reallıq səltənətindən çıxıb biologiya elmləri sayılan bu sahələrə, yəni insanın qalıq tarixinin ekstrasensor qavrayışı və şərhinə daxil olanda görürük ki, təkamül nəzəriyyəsinə inanan bir insan üçün hər şey mümkündür. Əslində, hətta nəzəriyyələrinə möhkəm inananların eyni vaxtda bəzi ziddiyyətli nəticələri qəbul etmələri də mümkündür". (Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)

***Ardı olacaq***

***Elçin Bayramlı***



SON SƏHİFƏ
SƏS
29 iyul
2025-ci il

# Kərə yağı adı ilə satılan saxta yağları necə tanıyaq?



*"Bazarda "kərə yağı" adı altında təqdim olunan ucuz məhsulların bir çoxu əslində tam olaraq heyvan mənşəli yağ olmayıb, bitki yağları və marqarinin qarışığından ibarət olur. Bu vəziyyət xüsusilə nəzarətsiz şəraitdə açıq şəkildə satılan, standartlara uyğun qablaşdırılmamış məhsullarda daha geniş yayılıb. Mütəxəssislərin müşahidələrinə əsasən, belə hallara əsasən qeyri-rəsmi bazarlarda, kənd təsərrüfatı yarmarkalarında və bəzi kiçik satış nöqtələrində tez-tez rast gəlinir". Bu sözləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib.*



## AİB sədri mühüm məqamları açıqladı

Eyyub Hüseynov sözlərinə belə davam edib: "Məhsulun orijinallığını və tərkibini saxtalaşdırmaq üçün tətbiq edilən üsullardan biri belədir: əvvəlcə süddən alınmış qaymaqla əsl kərə yağı hazırlanır və sonradan süzülmüş, yəni qaymaqsız qalmış südün tərkibinə marqarin əlavə edilir. Bu qarışım xüsusi homogenizator cihazında emal olunur, nəticədə süni şəkildə bircinsli, yağlı tekstura alınır. Bu kütlə yenidən soyudularaq qaymaq və nəticədə "yağ" halına gətirilir. Lakin bu məhsulların tərkibində əsas komponent bitki mənşəli yağ və marqarin olduğundan, onların orqanizm üçün fəsadları qaçılmazdır. Belə yağların uzunmüddətli istifadəsi sağlamlıq üçün ciddi təhlükələr yarada bilər, xüsusilə ürək-damar xəstəlikləri riskini artırır.

Təəssüf ki, bəzi hallarda belə saxta yağlar laboratoriya analizlərindən belə "keçir", çünki onların tərkibində az miqdarda da olsa süd turşuları olur. Bu isə laborator nəticələrdə yanlış interpretasiyaya səbəb ola bilər. Buna görə də istehlakçılar məhsulun keyfiyyətinə yalnız etiketə əsaslanaraq deyil, eyni zamanda istehsalçı firma, məhsulun görünüşü və teksturası ilə də yanaşmalıdırlar.

Qida Təhlükəsizliyi Agentliyi tərəfindən akkreditə olunmuş və monitorinqə məruz qalan böyük market şəbəkələri isə ciddi nəzarət tədbirləri həyata keçirir. Bu cür marketlərdə satılan yağların bir çoxu ya yerli, ya da beynəlxalq sertifikatlı istehsalçılara məxsus olur. Məsələn, Yeni Zelandiyadan gətirilən "Westgold" brendi mütəxəssislər tərəfindən etibarlı və yüksək keyfiyyətli məhsul nümunəsi kimi göstərilir. Bu zavodların şəffaf və ekoloji təmiz şəraitdə fəaliyyət göstərməsi, heyvanların açıq havada bəslənməsi və məhsulun tam nəzarət altında qablaşdırılması onu etibarlı edir. Yaxşı kərə yağını tanımaq üçün bir neçə fiziki əlamətə də diqqət yetirmək lazımdır. Əsl kərə yağı kəsilərkən bərabər şəkildə parçalanır, sərt olur və əriyərkən yumşaq deyil, daha çox qırıntılı olur. Saxta yağlar isə daha yumşaq konsistensiyaya malikdir və bu, onların tərkibində bitki yağı və ya margarin olduğunun göstəricisidir.

Sonda qeyd etmək vacibdir ki, istehlakçılar ucuz qiymətə aldanmamalı, məhsulun tərkibi, mənşəyi və istehsalçısı haqqında ətraflı məlumata sahib olmalı, yalnız rəsmi nəzarətdə olan satış məntəqələrinə üstünlük verməlidirlər. Qida təhlükəsizliyi həm fərdi sağlamlığın, həm də cəmiyyətin rifahının əsas şərtlərindən biridir".

***Ayşən Vəli***


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Bu gün rayonlarda 40 dərəcə isti olacaq - XƏBƏRDARLIQ

*İyulun 29-da Azərbaycanda 40 dərəcə isti gözlənilir. Bu barədə SİA-ya Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib. Bakıda və Abşeron yarımadasında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin 28-dən 29-na keçən gecə və səhər bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq.*



Havanın temperaturu gecə 23-27° isti, gündüz 32-37° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 754 mm civə sütunu, nisbi rütubət gecə 70-80 %, gündüz 45-55 % təşkil edəcək. Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi, gecə və səhər arabir duman olacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 22-26° isti, gündüz 35-40° isti, dağlarda gecə 10-15° isti, gündüz 22-27° isti olacaq.

# Moskvada azərbaycanlı bloggerə qarşı 20 milyonluq İTTİHAM...

Rusiyada daha bir azərbaycanlı barədə ittiham irəli sürülüb. Belə ki, Rusiya İstintaq Komitəsinin müstəntiqləri bloger Suboya (Sübhan Məmmədov) qarşı qiyabi olaraq 20 milyon rubl (cari məzənnə ilə 252,2 min dollar) məbləğində vergi ödəməkdən yayınma və pul vəsaitlərinin leqallaşdırılması ittihamı irəli sürüblər. Rusiya KİV-lərinin məlumatında deyilir ki, bu barədə Moskva vilayəti üzrə Baş İstintaq İdarəsinin mətbuat xidməti məlumat verib. "Moskva vilayəti üzrə Rusiya İstintaq Komitəsinin Baş İstintaq İdarəsinin istintaq orqanları tərəfindən bloger Sübhan Məmmədova qarşı qiyabi olaraq ittiham irəli sürülüb. O, xüsusilə iri məbləğdə vergi ödəməkdən yayınma və cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılmasında ittiham olunur.", - məlumatda bildirilib.




*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000